RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 280 (9735) 19 dekabr 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkə

Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibə verib

Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün.

Beləliklə, Gürcüstan məsələsinə qayıdarkən deməliyəm ki, o, göründüyündən daha genişdir. Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən, irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə, bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-facto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların de-yure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq.

→ 2-4

1389 cinayət işi, 15 hərbi cinayətkar... və 30 illik işğalçılıq siyasəti

Milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın başına olmazın müsibətlər gətirən, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən və hazırda Azərbaycan qanunları ilə yarqılanan hərbi cinayətkarların hər birinin adını qan yaddaşımıza yazmaq milli borcumuzdur...

Qukasyan Arkadi Arşaviri, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi, Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli, Beqlaryan Vasili İvani və Qazaryan Erik Roberti...

Şərəfsizlərin sıralandığı bu siyahının sonuna üç nöqtə ona görə qoyuruq ki, milli kimliyimizə düşmən kəsilərək azərbaycanlılara qarşı kütləvi qətllər, soyqırımlar törədən faşist xislətli erməni cinayətkarlarının sayı bunlarla bitmir. Hələ Azərbaycan qanunları ilə mühakimə olunacaq neçə-neçə hərbi canilər növbələrini gözləyir, başda Xocalı qatili Serj Sarkisyan olmaqla...

2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalıdakı qanlı əməlləri nə üçün törətdiklərini vəhşiliyə xas qürrə ilə etiraf etmiş, jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına "Heç bir peşmanlığım yoxdur" deyə cavab verən rəzil Serj Sarkisyan...

Həmin qatillərin də layiqli cəzalarını alacaqlarına şahidlik edəcəyimiz gün uzaqda deyil...

→ 7

Azərbaycan-Qətər dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir

Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan-Qətər dostluq və əməkdaşlıq əlaqələri xoş ənənələrə malikdir. İnanıram ki, dövlətlərarası münasibətlərimiz, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da birgə səylərimizlə uğurla davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 16 dekabr 2024-cü il

Qərbi Azərbaycan İcmasının fəaliyyəti ölkəmizdən kənarda da dəstəklənir

Yüz minlərlə azərbaycanlının öldürüldüyü İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulmuşdular. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

İfrat millətçi "Daşnaksütyun" partiyasının silahlı birləşmələri tərəfindən ötən əsrin əvvəllərində Bakıda törədilmiş kütləvi qətliamlar əvvəlki və sonrakı dövrlərdə tarixi Azərbaycan torpaqlarında xalqımıza qarşı həyata keçirilmiş genişmiqyaslı vəhşiliklərin dəhşətli tərkib hissəsidir.

Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən irqçi siyasətini günü bu gün də davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur, azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlər və terror aktları törətmiş Qaregin Njde, Andranik Ozanyan, Drastamat Kanayan, Monte Melkonyan kimi ünsürləri şöhrətləndirir və Njdeizm kimi irqçi ideologiyanı dövlət səviyyəsində təşviq edir.

→ 9

Almaniya və Fransada siyasi qarışıqlıq birjaları alt-üst edir

Avropa fond bazarları siyasi təlatümlər fonunda bədbinlik nümayiş etdirir

Almaniyada kansler Olaf Şolts Bundestaqdan etimad səsi ala bilməyib və bu, ölkəni fevralda - 7 ay erkən seçkilərə aparır. Şoltsun üçpartiyalı hökumət koalisiyası keçən ay "Azad Demokratlar"ın iqtisadi proqramla bağlı fikir ayrılıqları fonunda birlikdən getməsindən sonra dağılıb.

Fransada Milli Assambleya dövlətin 2025-ci il büdcəsi ərəfəsində fəaliyyət göstərməsinə və müəssisələrin bağlanmadan (şatdaun) qaçmasına imkan verən qanunu təsdiqləyib. Ölkənin baş nazirinin növbəti dəfə dəyişikliyi fonunda Moody's reytinq agentliyi Parisin kredit reytinqini aşağı salıb. Bildirilir ki, Fransanın dövlət maliyyəsi ölkənin siyasi parçalanması səbəbindən əhəmiyyətli dərəcədə zəifləyəcək və bu, yaxın gələcəkdə böyük kəsiri azalda biləcək tədbirlərin miqyasını və həcmini məhdudlaşdıracaq. Proqnozlar, xüsusən də istehsal sektorunda vəziyyətin daha da pisləşəcəyini vəd edir. Almaniya və Fransa üçün istehsalat satınalma menecerləri indeksləri (PMI) gözlənildiyindən daha zəif olub. Bu, siyasi qeyri-sabitlik və ləng qlobal tələb fonunda dərinləşən tənəzzülün əlamətidir.

→ 6

İnvestorlar Ermənistandan qaçırlar

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Rəsmi statistikanın açıqladığı məlumatlara görə, ilin birinci yarısında ümumi xarici investisiyaların xalis axını əvvəlki illə müqayisədə təxminən 236 milyon dollar azalıb. Birbaşa xarici sərmayələrdə azalma daha çox olub, 333 milyonu ötüb.

İlin birinci yarısında Ermənistanda xarici kapital real iqtisadiyyatdan gəldiyindən 91 milyon dollar çox çıxıb. Birbaşa investisiyalar baxımından xalis axın, demək olar ki, 55 milyon dollar mənfidir. Ermənistanın real iqtisadiyyatına yatırılan xarici investisiyalar baxımından həyəcanlı vəziyyət yaranıb. İnvestorlar vəsaitlərini Ermənistandan çıxarırlar.

Qeyd edək ki, Ermənistanda təhlükəsizlik mühiti nəinki investisiyaların daxil olmasına imkan vermir, həm də xaricə axını stimullaşdırır. Xarici kapital çıxır, çünki Ermənistanda investisiya inamı və qorunması son dərəcə aşağı səviyyədədir. Əvvəlki bir neçə ilin təcrübəsi çoxları üçün pis dərs və siqnal olub.

→ 6

Həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkə

Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir:

- Cənab Prezident, Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinə və "RİA Novosti" Agentliyinə müsahibə verməyə razı olduğunuza görə Sizə ürəkdən təşəkkür edirəm. 2022-ci ildə, sözün əsl mənasında, xüsusi hərbi əməliyyatın başlamasına bir neçə gün, sözün əsl mənasında, bir neçə saat qalmış Moskvada Prezident Putinlə Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə imzaladınız. O vaxtdan bəri dünya əsaslı şəkildə dəyişib. İndi Azərbaycanla Rusiya arasında müttəfiqlik nə deməkdir?

- Bəli, Siz tamamilə haqlısınız. Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə 2022-ci il fevralın 22-də imzalanıb. Siz düzgün qeyd etdiyiniz kimi, regionumuzda və bütövlükdə dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib, lakin bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib. Mən hesab edirəm ki, belə bir bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır. Bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik, qonşuyuq və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman, əlbəttə, deyərdim ki, belə bir sənəd tarixi hadisədir.

Əlbəttə ki, biz müttəfiqlər olaraq dərhal müxtəlif, hətta ikitərəfli formatımızın hansısa kölgədə qalan istiqamətləri üzrə də fəal işə başladıq.

Bəyannamənin imzalanmasından ötən illər ərzində Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana çox əlamətdar, həm də tarixi səfəri baş tutdu. O, dəfələrlə bizim ölkəyə gəlib, amma bu səfər xüsusi idi. Bu, dövlət səfəri ilk dəfə bu ilin yayında həyata keçirilib. Həmin səfər çərçivəsində biz nəinki münasibətlərimizin müttəfiqlik xarakterini təsdiqlədik, həm də ikitərəfli qarşılıqlı fəaliyyətin inkişaf yollarını müəyyənləşdirdik. Bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır və düşünürəm ki, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur. Artıq dediyim kimi, ölkələrimiz üçün çətin vaxtlarda biz həmişə həm vəziyyətin dərk olunmasını nümayiş etdirmişik, həm də özümüzü dostcasına aparmışıq. Əminəm ki, bundan sonra da belə olacaq.

Əlbəttə, biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik, ticarət dövriyyəsi artır, bəlkə də bizim istədiyimiz sürətlə deyil, lakin bununla belə, dinamika mövcuddur. Rusiyalıların Azərbaycana səfərləri baxımından da biz COVID-dən əvvəlki səviyyəyə çıxırıq ki, bu da həm siyasi, həm də sırf insani mühitin maksimum müsbət olduğunu göstərir, çünki bu səfərlər və qarşılıqlı səfərlər insanların özlərini rahat hiss etdikləri istiqamətlərdə həyata keçirilir. Son 2-3 il ərzində qarşılıqlı səfərlərin əhəmiyyətli dərəcədə artdığını görürük. Hazırda ölkələrimiz arasında reyslərin sayının artması buna əsas sübutdur. Düşünürəm ki, indi onlar sovet illəri ilə müqayisədə azı iki dəfə çoxdur.

Odur ki, biz münasibətlərimizin inkişafından məmnunuq, onları yüksək qiymətləndiririk və əminəm ki, bu müsbət dinamika gələn ildə də qorunub saxlanılacaq.

- Bununla belə, Rusiya üçün indi müharibə dövrüdür. NATO-da bildirirlər ki, blok yaxın 5-7 il ərzində Rusiya ilə müharibəyə hazır olmalıdır. Bunun üçün praktiki hazırlıq gedir. Səfərbərlik sistemi dəyişdirilib, Andrey Belousov bazar ertəsi Rusiya Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bu barədə danışıb ki, 10 gün ərzində Rusiya sərhədləri yaxınlığında 100 min, 30 gün ərzində 300 min və 180 gün ərzində isə 800 min NATO əsgəri olmalıdır. NATO 2026-cı ildə Almaniyada ortamənzilli raketlər yerləşdirməyi planlaşdırır, Putinin NATO bunu etmədikcə Rusiyanın bunu etməyəcəyi ilə bağlı xəbərdarlığına baxmayaraq. Rusiyanın müdafiə naziri Andrey Belousov bazar ertəsi Prezidentin iştirakı ilə Müdafiə Nazirliyinin genişləndirilmiş kollegiyasında bildirib ki, Rusiya yaxın onillikdə NATO ilə müharibəyə hazır olmalıdır. Bu, Azərbaycanla Rusiya arasında müttəfiqlik münasibətləri üçün nə deməkdir?

- Mən yenə də ümidvar olduğumu bildirmək istəyirəm ki, işlər NATO ilə Rusiya arasında belə açıq-aşkar qarşıdurmaya gətirib çıxarmayacaq.

Birincisi, ona görə ki, hamı bunun bütün dünya, bütün ölkələr və əlbəttə, regionla həmsərhəd olan ölkələr üçün fəlakətli nəticələrini dərk edir. İkincisi, mən yenə də ümid edirəm ki, Birləşmiş Ştatlarda administrasiya dəyişikliyi həm də xarici siyasət istiqamətlərində dəyişiklik olacaq. Cənab Trampın birinci prezidentlik dövründəki təcrübəsi, eləcə də onun və komandasının üzvlərinin seçkiqabağı kampaniyası zamanı və ondan sonra verdikləri bəyanatlar buna ümid etməyə imkan verir. Buna görə də NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək. Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin.

Azərbaycanın öhdəliklərinə gəlincə, biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər, bir az unudulmuş sözdür, - gərginliyin azaldılması - "detente". Düşünürəm, bu sözə indi beynəlxalq leksikonda tələbat var və ümid edirəm ki, ondan istifadə olunacaq. Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir. Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər. Axı bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Rusiyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr çox deyil. Buna görə də əgər belə bir ehtiyac olarsa, biz gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq.

- Rusiyada bu müharibə Ukrayna ilə müharibə kimi deyil, dünyanın yenidən qurulması uğrunda Ukrayna ərazisində Qərblə sivilizasiya döyüşü kimi qəbul edilir, çünki istənilən sülh müharibənin nəticəsidir və əlbəttə, Azərbaycan bunu çox gözəl bilir. Siz Türkiyə ilə müttəfiqlik münasibətlərindən danışırsınız. Azərbaycanda Türkiyənin hərbi bazasına ehtiyac varmı?

-Xeyr, qısa desək, lazım deyil. Vaxtaşırı müəyyən mediada belə məlumatların yayımlandığını nəzərə alaraq əgər cavabımı azca genişləndirsəm, deməliyəm ki, buna ehtiyac yoxdur. Azərbaycan müstəqilliyini bərpa edəndən sonra, 1992-ci ilin əvvəlindən Türkiyə ilə hərbi əməkdaşlıq edir. Bu hərbi əməkdaşlıq o vaxt başlayıb və bu günə qədər davam edir. Təbii ki, zərurətdən asılı olaraq formalar dəyişir, amma deməliyəm ki, bu 30 ildən artıq müddətdə Türkiyə və onun hərbi strukturları Azərbaycan Ordusunun müasirləşdirilməsində və onun həm döyüş qabiliyyətinə, həm də əməliyyatların planlaşdırılmasına, vəziyyətin təhlilinə, hərbi kəşfiyyatın potensialına uyğun olaraq yüksək standartlara çatdırılmasında böyük rol oynayıblar. Yəni belə yardıma görə türk dostlarımıza çox minnətdarıq.

Azərbaycan ilə Rusiya arasındakı bəyannamədən bir il əvvəl Türkiyə ilə Azərbaycan arasında imzalanmış Müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir. Buna görə də bəyannamənin həmin bəndi mahiyyət etibarilə bu və ya digər ərazidə hər hansı daimi hərbi infrastrukturun yaradılmasını tamamilə lüzumsuz edir. Bir daha informasiya müdaxiləsinə qayıdaraq demək istərdim ki, bu gün dünyanın heç bir yerində heç bir hərbi bazanı gizlətmək, demək olar ki, mümkün deyil. Ona görə də bu informasiya müdaxilələri, sadəcə, siyasi möhtəkirlik xarakteri daşıyır. Türkiyə ilə biz hər il 10-dan çox birgə təlim keçiririk - yarısı Azərbaycanda, yarısı Türkiyədə və mahiyyətcə hərbi əməliyyatların yüksək dərəcədə keçirilməsinə nail olmuşuq. Təbii ki, bu, Qafqazda sabitliyin mühüm amilidir. Çünki bugünkü dünya və hadisələrin inkişafı bir daha sübut edir ki, dünya əsaslı şəkildə dəyişib və İkinci Dünya müharibəsi nəticəsində yaranmış reallıqlar, müəyyən edilmiş oyun qaydaları bu gün artıq işləmir, hətta qlobal aktorlar bunu gizlətmirlər. Siyasi istəklərdə yenidən güc amili ön plana çıxır. Bunu daha tez dərk edən ölkələr bu gün özlərini daha təhlükəsiz hiss edə bilərlər. Halbuki müasir dünyada heç bir ölkə özünü tam təhlükəsiz hiss edə bilməz.

- Azərbaycan bundan sonra da Rusiya silahı almağı planlaşdırırmı və hansı həcmdə?

- Bəli, amma deməliyəm ki, ən azı son üç ildə Rusiya silahlarının alınması ilə bağlı yeni müqavilələr imzalanmayıb. Bunun səbəbi isə Rusiya müdafiə sənayesinin, deyək ki, yerli istehlakçı üçün işləməsidir. Bildiyimə görə, Rusiya məlum səbəblərdən müvəqqəti olaraq beynəlxalq silah bazarından çəkilib. Hətta 4 il əvvəl imzalanmış bəzi müqavilələrin də Rusiyanın xahişi ilə icra müddəti təxirə salınıb. Biz vəziyyəti başa düşərək bununla razılaşdıq, bu vəziyyət nəticəsində həmin müqavilələr icra oluna bilməz. Amma biz Rusiyanın müdafiə sənayesinin yeniliklərini də diqqətlə izləyirik. Artıq yeni müraciətlərimiz olub. Biz onları bu yaxınlarda göndərmişik və Rusiyanın müdafiə sənayesi hazır olduqda, təbii ki, yeni müqavilələr bağlayacağıq. Odur ki, mən bu prosesi obyektiv səbəblərdən müvəqqəti olaraq dayandırılmış hesab edirəm.

- Nikol Paşinyan KTMT ilə münasibətlərində geri dönüşün olmadığını açıqlayıb, Fransa ilə münasibətləri fəallaşdırır. Bu, regional təhlükəsizlik, xüsusən də Azərbaycan üçün nə deməkdir?

- Bu, birbaşa təhlükə deməkdir, biz bu barədə həm açıq şəkildə, həm də Ermənistanın baş naziri ilə danışıqlarımda dəfələrlə demişik, narahatlığımızı ona çatdırmışıq. Biz eyni narahatlığı Fransa hökumətinə və Bayden administrasiyası dövründə Cənubi Qafqaz ölkələrinə balanslı yanaşmasını dəyişərək Ermənistana birtərəfli dəstək yolunu tutan Birləşmiş Ştatların rəhbərliyinə də çatdırırdıq. Təhdidlərin kifayət qədər ciddi olduğunu göstərən çoxlu misallar var. Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Nəzərə alsaq ki, Ermənistanla sərhədimizin uzunluğu min kilometrdən çoxdur, bir çox yaşayış məntəqələri sərhədə yaxın yerləşib və bu yaşayış məntəqələrinin əksəriyyətinə keçmiş köçkünlər qayıdırlar, təbii ki, biz bu prosesi yalnız kənardan müşahidə edə bilmərik. Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, - hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, - ABŞ isə bunu etiraf etmir. Halbuki biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik.

Təbii ki, biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcə olacaq. Bu, təxminən beş milyard dollardır. Bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpasına, sosial ödənişlərə və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bax, bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik. Odur ki, biz həm danışıqlar prosesi çərçivəsində, həm də Ermənistanla Azərbaycan arasında işləyən delimitasiya komissiyası çərçivəsində və erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın.

- Amma bir vaxtlar elə görünürdü ki, sülh sazişi tezliklə bağlanacaq. Bəs o, niyə bağlanmır? Sözün əsl mənasında, hazır vəziyyətdə dayanmışdılar.

- Bəli. Qərbdə bu iki proses nə üçünsə bir-birindən ayrıdır. Baxmayaraq, biz hesab edirik ki, bu iki proses birləşdirilməlidir. Sülh sazişi və Ermənistanın eyni vaxtda bizə qarşı silahlandırılması iki fərqli kursdur. Axı biz, əslində, sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik. Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam. Bu halda...

- Əgər dəqiqləşdirsək, hansı maddələrdir?

- Onlardan biri bir-birinə qarşı beynəlxalq iddialardan kənarda durmaqdır. Zənnimcə, bu, qarşılıqlı şəkildə qəbul olunan maddədir. Bu yaxınlarda biz vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik. Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni işğal illərində vurulan zərərdir. Ona görə də zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilməndir. Digər maddə başqa ölkələrin nümayəndələrini bizim sərhədimizdə yerləşdirməməklə bağlıdır. Bu, niyə bizim üçün vacibdir? Çünki sözdə Avropa müşahidəçiləri pərdəsi altında bizimlə Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradılıb. Axı, bu müşahidəçilərin göndərilməsi məsələsi bizimlə 2022-ci ilin oktyabrında Paşinyan, Avropa Şurasının prezidenti Şarl Mişel, Fransa prezidenti və mənim aramda keçirilən dördtərəfli görüşdə razılaşdırılıb. O vaxt Fransa hələ bizim tərəfimizdən normallaşdırma prosesindən kənarlaşdırılmamışdı. Belə bir razılıq əldə edildi ki, Avropa İttifaqının nümayəndələrinin iki ay müddətində məhdud kontingenti olacaq...

- Məhz müşahidəçilərin…

- Məhz müşahidəçilərin. İki aylığına 40 nəfər yerləşdiriləcək. Bundan sonra bu missiya bizimlə razılaşdırılmadan uzadıldı və arqument bundan ibarət idi: niyə sizinlə razılaşdırmalıyıq, axı, bu missiya Ermənistan ərazisindədir.

Ardı 3-cü səh.

Həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkə

Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibə verib

Əvvəli 2-ci səh.

Bizim isə arqumentimiz belə idi: razılığa gələndə siz niyə bizimlə razılaşdırdınız? Axı, belə olmaz. Sonra onların sayı 200 nəfərdən çox artırıldı. Bundan başqa, bu missiya tədricən NATO-nun missiyasına çevrildi, belə ki, oraya Kanadanın nümayəndələri qoşuldu. Beləliklə, bu, bizim razılığa gələcəyimiz ikinci maddədir.

Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz Konstitusiyasını dəyişməkdir. Çünki Konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də Konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə, obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir.

Prinsipcə bunlar hamısıdır, əgər bunlar həll edilsə, daha sülh sazişinin imzalanmasına heç bir maneə olmayacaq. Davam edən silahlanma yarışına gəldikdə, bu, əlbəttə, sülh sazişinin bir hissəsi ola bilməz, amma Ermənistanla qarşılıqlı fəaliyyətin sanki başqa formatının bir hissəsi olacaq. Biz gələcəkdə də, ilk növbədə bu cür hərəkətlərin onlar üçün fəlakətli olacağını erməni tərəfinə çatdırmağa çalışacağıq.

- Qarabağda nə qədərsə erməni qalıbmı? İndi orada vəziyyət necədir?

- Təqribən iki ay əvvəl son informasiya ondan ibarət idi ki, orada erməni millətindən olan 20-yə yaxın sakin yaşayır. Hələ 2023-cü ilin sentyabrında, biz birgünlük antiterror əməliyyatı keçirənə qədər Qarabağ ermənilərinin Azərbaycan dövlətinə reinteqrasiyası planını rəsmi olaraq dərc etdik. Bu, açıq şəkildə edildi. Bu, internetdə elan olundu. Çünki erməni ictimaiyyətinin nümayəndələri ilə təmas qurmaq üzrə çoxsaylı cəhdlərimiz uğurla nəticələnmədi. Onlar bizə məhəl qoymur, bizimlə görüşmək, bizimlə danışmaq istəmirdilər. Belə olan təqdirdə orada yaşayanların, necə deyərlər, diqqətinə çatdırmaq üçün biz bunu internetdə yaydıq. Orada kifayət qədər aydın şəkildə hər şey yazılıb, istəyən hər kəs baxa bilər, təhsildən, mədəni mühitin qorunub saxlanmasından, reinteqrasiyadan, inteqrasiya yollarından, yaxud yaşamaq üçün müraciət etmək və ya vətəndaşlıq almaq, yaxud işləməyə icazə verilməsinədək bütün məsələlər. Vəziyyət bundan ibarət idi. Əgər onlardan hər hansı biri bütün bu baş verənlərdən sonra hansısa anlaşılmaz "Dağlıq Qarabağ respublikasında" yaşadığını düşünürdüsə, bu, onların problemidir. Yəni hər hansı bir insan kimi. Bir insan Azərbaycandan Rusiyaya işləməyə gedir, müvəqqəti yaşayış hüququ və ya çalışma icazəsi alır, qeydiyyatdan keçir, sonra o, vətəndaşlıq üçün müraciət edir. Proses bundan ibarətdir. Biz də bunu təklif etdik, amma heç biri qəbul olunmadı. Belə olan halda orada vəziyyət dəyişdi, orada qalanlar, - onların sayı isə o qədər də çox deyildi, təqribən 30-dan çox insan, bir hissəsi sonra çıxıb getdi, - əvvəlki kimi Azərbaycandan, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən sosial yardım alırlar, onların müalicəsi, ərzaqla təminatı qarşılanıb, orada həyat tam təmin edilib. Məsələ məhz bundan ibarətdir. Buna paralel olaraq Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib.

- Artıq Ermənistana?

- Artıq Ermənistana. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq. Zənnimcə, əgər bu iki proses paralel kursla gedərsə, onda bu, sülh üçün ən yaxşı ictimai ab-hava yaradacaq. Çünki sülh təkcə sülh sazişini imzalamaq demək deyil, bu, həm də ictimai konsensusdur. Bizim işğal illərində aldığımız yaralar isə 30 il keçməsinə baxmayaraq, hələ də sağalmayıb. Yəni bunun üçün vaxt lazımdır. Bu məqsəd üçün isə ictimai fon, ünsiyyət lazımdır, insani dildə danışmaq gərəkdir. Beləliklə, indi vəziyyət bundan ibarətdir.

- Rusiya şirkətləri Qarabağın bərpasında iştirak edirmi? Bu barədə danışardınız.

- Bəli, bu yaxınlarda Həştərxan vilayətinin qubernatorunun tapşırığına əsasən uşaq bağçasının tikintisinə başlanılıb. O, bu yaxınlarda bizi ziyarət etdi, həmçinin bu sosial infrastruktur obyektinin tikildiyi Qubadlı rayonunda oldu. Beləliklə, biz bu cür diqqətə görə çox minnətdarıq. Bərpa işlərində mal və xidmətlərin tədarükçüsü qismində iştirak edən bir neçə Rusiya şirkəti var, həmçinin rusiyalı iş icraçıları da mövcuddur, amma deyərdim ki, onların sayı çox deyil. Zənnimcə, onların sayı daha çox ola bilər, çünki bərpa işlərinin miqyası kifayət qədər genişdir və bu, ilk növbədə indi infrastruktur layihələrini, yolları, dəmiryol tunellərini, körpüləri əhatə edir, yəni bu sahədə yaxşı təcrübəsi olan çoxlu sayda Rusiya şirkəti var. Buna görə biz...

- Siz bunu alqışlayardınızmı?

- Bəli, sözsüz. Biz bunu alqışlayardıq və alqışlayırıq. Həm də kömək göstərilməsi planında, Həştərxan vilayətinin etdiyi kimi, sadəcə, layihələrdə iştirak etmək baxımından. İnvestisiya layihələri var. Yeri gəlmişkən, ilk investisiya layihəsi Tatarıstan tərəfindən həyata keçirilib. Bu, Cəbrayıl rayonunda Tatarıstanın rəhbəri və mənim tərəfimdən açılmış "KamAZ" xidmət mərkəzidir. Yeri gəlmişkən, bu gün mənim də Tatarıstan rəhbəri ilə görüşüm olacaq. Tatarıstan nümayəndə heyəti Bakıdadır. Yəni bu, ilk investisiya, daha dəqiq desək, xarici investisiyalar üzrə birinci layihənin, həmçinin Rusiyaya məxsus olmasıdır. Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq.

- Çox xoşdur. Azərbaycana atom elektrik stansiyası lazımdırmı?

- Mən bizim energetika gündəliyini sanki bir az açıqlayardım ki, tamaşaçılara bizim harada olduğumuz və nə etdiyimiz aydın olsun. Azərbaycanda təbii qazın sübut olunmuş ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Nəzərə alsaq ki, otuz il ərzində bizim işlətdiyimiz neft yataqları, resursların yeni qiymətləndirilməsi 500 milyon tondan bir milyard yarım tona çatıbdır, onda bizim qaz və qaz-kondensat yataqlarımız haqqında təxminən eynisini demək olar. Yəni 2,6 trilyon on il əvvəlki qiymətləndirilmiş ehtiyatlardır. Aydındır ki, bu cür potensial həcmlə və 25 milyard kubmetr ixrac həcmi ilə biz əlavə enerji mənbələrinə ehtiyac duymuruq. Üstəlik, Qarabağda və Şərqi Zəngəzurda son üç ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və iki ildən sonra bu, 500-ə çatacaq. Əlavə olaraq, külək və günəş energetikasını xarici investisiyalar hesabına fəal şəkildə inkişaf etdiririk. Dünya Bankının qiymətləndirməsinə görə, təkcə Xəzərdə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək. Yəni bu, sizin bizə AES-in lazım olması ilə sualınıza cavabın bir hissəsidir. İndi başqa məsələyə keçirəm, zənnimcə, bu, maraqlı olardı. Birincisi, iqtisadiyyatın daha bir sektoru nöqteyi-nəzərindən.

- Bu, bütövlükdə bir sahədir.

- Əlbəttə. Bu sahə potensial kadrlar deməkdir, bu, bizim heç vaxt malik olmadığımız tamamilə yeni kadrlardır. İkincisi, hər halda bu, dünyada mövcud olan tendensiyadır və ondan geri qalmaq istəmirik. Ona görə də artıq mənim tərəfimdən tapşırıq verilib ki, elmi təcrübəli strukturların, elmi məqsədlərlə kiçik reaktorların imkanları öyrənilsin ki, bunun məhz bu nöqteyi-nəzərdən bizə nə verəcəyini görə bilək.

Bunun çox bahalı iş olduğunu, günəş, külək enerjisi layihələrinin Azərbaycanda xarici investorlar tərəfindən həyata keçirildiyini, dövlətin heç bir sərmayə qoymadığını, sadəcə, belə bir potensiala malik olacağını nəzərə alaraq, əlbəttə, biz bu sahəyə daha çox investisiya layihələrində maraqlı idik. Əgər hər hansı bir ölkədən hansısa şirkət maraq göstərərsə, biz də birgə investor ola bilərik. Zənnimcə, bu, investisiyalar üçün yaxşı layihə ola bilər. Çünki indi, elə bu günlərdə, yaxın vaxtlarda, yəqin ki, həftələrdə və ya bir-iki ayda buradan, Azərbaycandan Qara dənizin dibi ilə enerji kabellərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması başa çatacaq. İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq. Ona görə də onlara təmiz "yaşıl enerji" mənbələri lazım olacaq. Yəni bu, yaxşı aparıcı qüvvə ola bilər. Həmçinin Azərbaycanda elektrik enerjisinin daxili qiymətləri elədir ki, bu sektora investisiyalar və şirkətlər üçün istehlakçılara elektrik enerjisinin satışı kommersiya nöqteyi-nəzərindən tamamilə məqbuldur. Bu baxımdan mən bir növ sizin sualınıza cavab verməyə çalışdım. Bu, "hə" və ya "yox" demək deyil. Bu, daha çox "hə"dir, amma ... Bundan sonra bizim bir növ ev tapşırığımız başlayır.

- Bu yaxınlarda Azərbaycan nəhəng iqlim sammitinə evsahibliyi etdi. Hansı çətinliklərlə üzləşməli oldunuz və bu sammitin əsas nəticələri nədən ibarətdir?

- Başlıca çətinlik ondan ibarət idi ki, bizim vaxtımız az idi. Bir qayda olaraq, ölkələrə hazırlıq üçün 2 il vaxt verilir. Bizim isə 11 ayımız var idi. Bunun səbəbi o idi ki, ötən ilin dekabrında qərar qəbul edilməsinə iki-üç gün qalmış Ermənistan hələ də Azərbaycanın namizədliyini bloklayırdı. COP29-un Bakıda keçiriləcəyi ilə bağlı konsensus olmadığına görə məsələ son günlərdə həll edildi. Ona görə də hazırlaşmaq üçün bizim cəmi 11 ayımız var idi və bu, ən böyük çətinlik idi. Çünki biz 70 mindən çox insanı qəbul etmək üçün şərait yaratmalı idik. Qeydiyyatdan 76 min iştirakçı keçmişdi. Onları yerləşdirmək, mehmanxana fondunun sertifikatlaşdırılmasını yenidən aparmaq, - belə ki, bizim mehmanxana fondunda bu qədər yer yoxdur, - qonaqların yerləşdirilməsi məkanlarını müəyyən etmək lazım idi. Bunun üçün müxtəlif istirahət zonaları müəyyənləşdirildi, həmçinin tikilmiş, amma hələ istifadəyə verilməmiş mənzil fondu obyektləri mehmanxana normalarına uyğun vəziyyətə gətirilməli idi. Bu, çox böyük təşkilati iş idi və biz onun öhdəsindən şərəflə gəldik. Yəni bildiyimə görə, bu konfransın keçirildiyi bütün vaxt ərzində təşkilatçılıqla bağlı on şikayət olub, amma onlar operativ şəkildə nizamlanıb və belə demək mümkündürsə, bütün qonaqlar razı qalıb.

İkinci çətinlik, əgər onu çətinlik adlandırmaq mümkündürsə, deyərdim ki, müəyyən rahatsızlıqla bağlı olan məsələ tamamilə əsassız aqressiya hissi, bir növ Azərbaycana qarşı paxıllıqla müşayiət olunan qərəz idi. Yəni belə bir ölkə var və birdən-birə bu cür konfransa evsahibliyi etmək hüququ qazanıb. Müxtəlif Qərb media orqanları bizi "petrostate" adlandırmağa başladı. Halbuki prinsipcə burada pis bir şey yoxdur. Mən açılışda çıxış edərək dedim ki, əgər bizi XIX əsrdə "petrostate" adlandırsaydılar, - o dövrdə biz dünya neftinin 50 faizini tədarük edirdik, - onda bu, normal olardı. Amma indi təqribən bizim 30-a qarşı milyard ton neft hasil edən ölkənin, - mən ABŞ-ni nəzərdə tuturam, - bugünkü feyk xəbərlərində bizi "petrostate" adlandırırlar.

- Otuz?

- Bəli. Bizdə neft hasilatı cəmi 30 milyon civarındadır. Bu ölkənin qonşusu, - mən Kanadanı nəzərdə tuturdum, - bizdəkindən 10 dəfə artıq neft hasil edirsə və bizi "petrostate" adlandırırsa, bu, ədalətsizlikdir. Amma bu feyk xəbərlər qrupu, - yeri gəlmişkən, bu, mənim ifadəm deyil, sadəcə, Prezident Trampdan əxz etmişəm və bu, mənim çox xoşuma gəlir, - zənnimcə, çox hərtərəfli və olduqca ünvanlıdır. Onları adlandırdığımız kimi, "yalançı dördlük" - "Washington Post", "New York Times", "Figaro" və "Le Monde". Bax, bu dördlük Dövlət Departamentinin himayəsindəki müxtəlif qeyri-hökumət təşkilatları ilə birlikdə qərəzli kampaniyaya başladılar, hər gün hücum edirdilər.

Hər gün məqalələrin sayı yəqin ki, minimum 20-dən çox olurdu. Bu, çətinlik yaratmadı, amma, sadəcə, ikrah hissi doğurdu. Əlbəttə ki, nəticə əldə etmək çətin idi, çünki biz bu sahədə qlobal aktor deyilik. Qlobal qaz emissiyasında Azərbaycanın payı 0,1 faizdir. Halbuki ABŞ-də bu, 12, Avropa İttifaqında daha çoxdur...

- Həm də bunu azaldırlar.

- Bəli, azaldırlar.

- Onu dəfələrlə azaldırlar. Bu, ayrıca mövzudur.

- Mən, sadəcə, rəsmi rəqəmləri göstərirəm. Ona görə də biz bütün diplomatik təcrübəmizi işə saldıq, ilk növbədə Qoşulmama Hərəkatında sədrlik təcrübəmizi. Hər halda orada 120 ölkə var. İslam Əməkdaşlıq Təşkilatında fəal üzvlük də körpülər qurmağa və nəticə əldə etməyə kömək edir. Bu, asan olmadı. Amma hər halda biz bu konfransı təsadüfən "Bakı dönüşü" adlandırmırıq, çünki Paris Sazişinin 6-cı maddəsini razılaşdırmaq mümkün oldu. O, 2015-ci ildən müzakirə olunurdu. Yəni təxminən 10 il karbon bazarları məsələsi razılaşdırılmamışdı. Biz burada - Bakıda buna nail olduq və o, artıq fəaliyyət göstərəcək. Bu, ölkələrə kvotaları satmağa və bununla da qlobal emissiyanı arzuolunan həddə saxlamağa cəhd göstərməyə imkan verəcək. Bəzilərinin uğursuz adlandırdıqları ikinci bənd üzrə, - amma mən hesab edirəm ki, bu, uğurdur, - biz iqlim mövzularına illik xərclərin məbləğini razılaşdıra bildik. Bu məbləğ 300 milyard dollardır. Məqsəd trilyon idi. Amma aydın idi ki, trilyonu verməyə hazır deyillər. Lakin onu nəzərə alsaq ki, bundan əvvəlki razılaşdırılmış rəqəm 100 milyard idi, burada isə 300 oldu, bunu uğursuzluq adlandırmağa dilim gəlmir. Başqa məsələlər də var idi. Orada Azərbaycan tərəfindən 14 təşəbbüs irəli sürüldü. Ölkələrin mütləq əksəriyyəti bu təşəbbüslərə qoşuldu, Fransa və Lüksemburq kimi dövlətlər istisna olmaqla. Fransa ilə bağlı məsələ aydındır. Lüksemburqun Fransanın ardınca getməsi yəqin ki, məlumdur. Bax, bu konfransı mən təxminən belə xarakterizə edərdim. Əlbəttə ki, 197 ölkə, 80 dövlət və hökumət başçısı, qeydiyyatdan keçmiş 76 min iştirakçı. Həm də bu, boykot cəhdlərinin fonunda oldu. Bu, bir növ ölkənin təqdimatı idi.

- Sözsüz ki, Azərbaycanı bu münasibətlə təbrik etmək olar.

- Sağ olun.

- Siz özünüz Fransanı misal çəkdiniz və Azərbaycana qarşı feyk xəbər hücumlarını. Fransa prezidenti hətta BMT-nin Baş Assambleyasında Azərbaycana qarşı hücumlar etdi. Buna cavab olaraq Siz Fransanın dənizaşırı ərazilərini, onların əsl neokolonializmlə üzləşdiyini xatırlatdınız. Onda artıq məsələyə Cozef Borel qarışdı və Azərbaycana hücum etdi. Məgər Avropanı tənqid etmək olmaz? Bu, nə məsələdir? Ümumilikdə nə baş verir?

Ardı 4-cü səh.

Həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkə

Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibə verib

Əvvəli 3-cü səh.

- Onlar kiminsə onlara ədalət öyrətməsinə alışmayıblar. Onlar öyrəşiblər ki, hamıya özləri dərs versinlər. Onlar alışıblar ki, qarşılarında baş əyirlər, müəyyən məsələlərdə onlardan xahiş edirlər, onlarla məsləhətləşirlər, onların icazəsi olmadan heç nə etmirlər. Beləcə keçmiş kolonial, indi isə bəzi neokolonial ölkələr bu tərzdə yaşamağa və düşünməyə alışıblar. Bu, onların şüurunda dərin kök salıb. Prinsipcə, bizim Fransa ilə heç vaxt problemimiz olmayıb. Hətta deyərdim ki, Fransa ilə hər hansı bir Avropa ölkəsindən daha çox əməkdaşlıq edirdik. Bu, Fransada Makronun hakimiyyətə gəlişinə qədər idi. Mənim atam 1993-cü ildə Prezident seçildikdən sonra ilk rəsmi səfərini Fransaya edib. Çünki onlar birinci olaraq onu dəvət edirdilər. Mən Prezident olduqda, 2003-cü ildə həmçinin ilk ölkə olaraq Fransadan dəvət aldım və birinci səfərim bu ölkəyə oldu. Sonra biz fəal əməkdaşlıq edirdik, burada çoxlu fransız şirkəti işləyirdi. Bizdə Fransanın 13 şəhəri ilə qardaşlaşmış şəhərlər var.

- Qardaşlaşmış?

- Bəli, əlbəttə. Amma bu əndazəsiz iddialar və Makron hökumətinin əsassız olaraq özünü böyük sayması bütün bunları uçuruma yuvarlatdı. Çünki İkinci Qarabağ müharibəsi başlayanda onlar açıq şəkildə işğalçıların tərəfini tutdular. Bu, ilk belə siqnal idi ki, münasibətlərimizdə heç də hər şey qaydasında deyil. Lakin onların tərəfindən verilən siqnal idi. Sonra onlar bu nəticələri hər halda qəbul etməyə məcbur oldular, amma bununla yanaşı, əllərindən gələni etdilər ki, prosesə zərər versinlər. Bu yaxınlarda Baş nazir vəzifəsindən qovulmuş cənab Barnye hələ 2020-ci ildə fransız siyasətçisi qismində Qarabağa qanunsuz şəkildə səfər etmişdi. Yəni bütün bu müdaxilə cəhdləri ona gətirib çıxardı ki, münasibətlərimiz, sadəcə, böhran həddinə çatdı, sonradan daha da pisləşdi. 2023-cü ilin sentyabrından sonra onlar beş dəfə bu məsələni Təhlükəsizlik Şurasına daşımağa cəhd etdilər və beş dəfə də uğursuzluğa düçar oldular. Bizi dəstəkləyən ölkələrin sayı onlara həmin məsələni hətta iclasın gündəliyinə salmağa da imkan vermədi. Sonra onlar başqa yolla getdilər, - necə deyərlər, biz başqa yolla Avropa İttifaqına gedirik, - Azərbaycana qarşı sanksiyalara cəhd etdilər. Nəyə görə? Ona görə ki, biz öz suverenliyimizi bərpa etmişik? Burada da uğursuzluğa düçar oldular. Bizə qarşı kinləri, necə deyərlər, daha çox artdıqdan sonra isə onlar indi bizi nüfuzdan salmaq üçün bütün metodlardan istifadə edirlər.

Onların kolonial keçmişinə gəldikdə, bəziləri bunu bizim cavabımız kimi qiymətləndirirlər, amma zənnimcə, bu məsələ ola bilər ki, daha dərin xarakter daşıyır. Əgər ən başlanğıcda haradasa, necəsə bu məsələni nəzərdən keçirmək mümkün idisə, indi bu mövzuya dərindən nüfuz etdiyimiz, fransız kolonializminin iyrənc simasını gördüyümüz, bizim nümayəndələrimizin fransız koloniyalarının sakinləri ilə fəal ünsiyyət saxladıqları, - həm onların ölkələrində, həm Bakıda, həm də digər məkanlarda, - vaxtda, əslində, biz görürük ki, uzun illər ərzində dünya ictimaiyyətindən nələri gizlədiblər. Nə üçün? Çünki heç kim bununla maraqlanmaq istəmirdi. Heç kim başının ağrımasını istəmirdi. Çünki onlar şantaj edirlər. Hətta bizim münasibətlərimiz soyuq müharibə fazasına daxil olduqda əvvəlcə bizə mesajlar gəlirdi ki, "unutmayın, biz böyük ölkəyik".

- Bəs nəyi gizlədirdilər? Siz xatırlatdınız ki, nəyisə gizlədirdilər. Bu, nədən ibarətdir?

- Necə yəni nəyi? Təbii ehtiyatların amansız istismarını.

- Siz Yeni Kaledoniyanı nəzərdə tutursunuz?

- Təkcə onu deyil. Zənnimcə, orada Yeni Kaledoniya kimi 13, yaxud 15 ölkə var. Elə bu yaxınlarda onların birində - Mayot adasında sunami baş verdi. Dünən "Euronews" xəbər verirdi: Mayot adası əhalisinin 75 faizi yoxsulluq həddindən aşağı səviyyədə yaşayır. Evlərin 30 və ya 40 faizi yararsızdır. Bu ərazi hüquqi olaraq Fransaya məxsusdur. Hərçənd bu, Qəmər adalarının bir hissəsidir. Bu, Qəmər dövlətinin adalarından biridir. Fransa onu qanunsuz olaraq saxlayır və hansı hüquqi əsasla?

Onlar Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanı qətlə yetirdilər, 100-dən çoxunu yaraladılar, 1000-dən artığını həbs etdilər. Həm də xalq etirazlarının liderlərini Fransaya apardılar, həbsxanalarda saxlayırlar. Yəni bu, Makronun diktaturasıdır. Bu, Makron rejimidir. Mən bu barədə danışdıqda, təbii ki, qeyri-hökumət təşkilatları, yaxud media qismində öz "zəncirli köpəkləri"ni üzərimə salırlar. Yəni biz yenidən, - mən Azərbaycan ictimaiyyətini nəzərdə tuturam, - bu məsələni cavab qismində gündəlikdə saxlamağa başlayandan sonra indi vəziyyət daha ciddi olub. Təbii ki, biz hüquqları olmayan bu xalqlara ürəkağrısı ilə yanaşırıq. Avropanın mərkəzində - Korsikada onlar Korsika dilini qadağan edirlərsə, bu dilin ictimai yerlərdə istifadəsinə icazə vermirlərsə, o zaman Yeni Kaledoniya haqqında nə demək olar? Bu, nəyə yarayar? Bu demokratiyadır? Bu, insan hüquqlarıdır? Yəni Fransa ola bilər ki, nə vaxtsa böyük ölkə, dahi mütəfəkkirlər, böyük alimlər, yazıçılar ölkəsi olub. Amma indi belə deyil. Hazırda Makron rejimi mahiyyət etibarilə Fransanı uğursuz dövlətə çevirir. Baxın, bir neçə misal çəkəcəyəm: Afrikada, Sahel regionunda iflas. Onlara "Əlvida!" dedilər. Niger, Burkino-Faso, Mali. Növbədə Çaddır, bu ölkə artıq onlardan çıxmağı tələb edir. Seneqal - burada prezident dəyişdi və milli ruha malik insan gəldi. Bu, hələ başlanğıcdır. Livanda uğursuzluq, Azərbaycanda tam iflas, Gürcüstanda iflas. Diqqət yetirin, daxili siyasətdə nələr baş verir? Hərcmərclik! Yeni Baş nazir təyin olunur. Onun əri və ya arvadı, bilmirəm, onlarda bunların hansıdır, xarici işlər naziri təyin edilir. Avropa Parlamentinə seçkilərdə uğursuzluqdan sonra onları "günah keçisi" edirlər. Naftalindən çıxarılmış Barnye təyin olunur və onu da qurban verirlər. İndi yenə kimisə tapırlar. Olmazmı ki, elə özündən başlasın? Əvvəllər sovet dövründə deyildiyi kimi, "özünütənqiddən başlamaq lazımdır". Baxın, "Moody`s" Fransanın reytinqini aydan-aya aşağı salır. Artıq "Triple-A"ya çatıb, orada kiçik "A" mövcuddur. Çox kiçik, güclə görünən.

- Orada xarici borc həddən artıq yüksəkdir.

- Bu iflasdır. Həm də uğursuzluq davam edir. Belə bir iflasın müəllifi kimdir? Cənab Makron. Azərbaycana zərər vermək əvəzinə, bax, bu barədə düşünmək lazımdır. Onların bizə batırmaq istədikləri dişləri artıq sınıb. Heç olmasa, qalanları qoruyub saxlasınlar.

- Hazırda Gürcüstanda baş verənləri Siz necə qiymətləndirərdiniz?

- Görürəm ki, Gürcüstanda vəziyyət sabitləşir. Biz buna şadıq. Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. Uzun əsrlərdir ki, xalqlarımız sülh və əmin-amanlıq şəraitində yaşayır. Ona görə də Gürcüstanda sabitliyin pozulması və ya sabitliyin pozulması təhlükəsi Gürcüstan üçün olduğu kimi, Azərbaycan üçün də zərərlidir. Bu səbəbdən biz öz tərəfimizdən çalışırıq və bütün addımları atırıq ki, Gürcüstanda vəziyyət siyasi məcrada sabit olsun, Gürcüstan uğurla inkişaf etsin.

Yenidən xarici təsir məsələsinə qayıtdıqda, məlum oldu ki, Gürcüstanda Qərbdən maliyyələşən minlərlə qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlarda çalışan və ya əməkhaqqı alan insanların sayı isə yəqin ki, on minlərlə, hətta daha çoxdur. Biz bilirik ki, bu, nə deməkdir. Çünki burada, bizim ölkəmizdə qrantla qidalananların və qrant verənlərin özlərini ağa kimi apardıqları dövr var idi, amma biz bunun qarşısını aldıq. Ona görə də hər hansı qurumun, istər Azərbaycan və ya xarici olsun, verdiyi istənilən qrant qeydiyyatdan keçməlidir və müvafiq orqanlar icazə verib-verməməyi nəzərdən keçirməlidir.

- Bu, Azərbaycanın milli maraqlarına uyğundurmu?

- Bəli, təbii ki. İkincisi, yardım asılılıq yaratmamalıdır. Ona görə də Bayden administrasiyası tarixdə, o cümlədən nə ilə yadda qalacaq? Bir çox məsələ, amma o cümlədən bir göstərici ilə. Bu, yaxadan asılmaqdır. Biz sizə kömək etmək istəyirik. Biz isə deyirik: sağ olun, ehtiyac yoxdur. Onlar təkid edirlər. Bax, onların USAID adlı strukturu var. Yardım etmək istəyir, amma nədənsə bizə lazım olan məsələdə deyil.

- O, Rusiyada qadağan olunub.

- Bizdə hələ qadağan edilməyib, amma zənnimcə, Tramp onu qadağan edə bilər.

- Rusiyada onu özümüz qadağan etdik.

- Siz qadağan etdiniz və doğru iş gördünüz. Mən düşündüyümü deyirəm, o, ümumiyyətlə, sıradan çıxa bilər. Bax, onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin? Belə ki, onlar "Amerikanın səsi" və "Azadlıq radiosu" kimi əlaltı resursları vasitəsilə gecə-gündüz xalqımıza, ölkəmizə qara yaxırlar, Ermənistan üzərində qələbəmizə kölgə salırlar. Ona görə də mənə elə gəlir ki, bunun qaydaya salınması Gürcüstanda müəyyən vaxt ərzində nəzərdən qaçırılıb, bunu etdikdə isə, necə deyərlər, qatar bir az getmişdi. Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır. Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün.

Beləliklə, Gürcüstan məsələsinə qayıdarkən deməliyəm ki, o, göründüyündən daha genişdir. Zənnimcə, bu səbəbdən nəzərdə tuturam ki, adətən, irəliyə sanksiyaları vərdişə çevirmiş ölkələri verirlər. Əgər belə demək mümkündürsə, bu, Qafqaz uğrunda döyüşdür. Ermənistanın haraya getdiyi aydındır. O, mahiyyətcə KTMT-dən de-fakto çıxıb. Bizim yoxlanılmış məlumatlarımıza görə, onların deyure çıxmamasının səbəbi hələ Dövlət Departamentindən təlimat almamalarıdır. Bunu alan kimi, onlar çıxacaqlar. Azərbaycan müstəqil aktordur və kifayət qədər ixtisaslaşıb, özünü müdafiə edə bilir. Ona görə də Gürcüstan Qafqaz uğrunda döyüşlərdə mühüm amildir. O, necə olacaq? O, bizim ənənəvi Qafqaz dəyərlərinə əsaslanacaq.

Yeri gəlmişkən, Borel haqqında danışdıq, mən ona məhəl qoymadım. Bunun ardınca ona hələ bir-iki siqnal göndərmək istəyirəm. Hərçənd mən COP-da çıxışlarımın birində bu barədə danışmışam, hətta Boreldən sitat gətirmişəm ki, o, Avropanın çiçəklənən bağ, qalanların isə cəngəllik olduğunu bildirib.

Mən isə dedim ki, əgər biz cəngəllikiksə, bizdən uzaq durun. Ümumiyyətlə, Borelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib.

- Azərbaycan Qafqazın ən rusdilli ölkəsi sayılır. Puşkin adına Rus Dili İnstitutunun tədqiqatları da bunu təsdiq edir. Rus dili sizin üçün xüsusi qayğı predmetidir. Siz buna necə nail olursunuz və bu, Azərbaycana nə verir?

- Çox asan. Çünki ona ictimaiyyət tərəfindən tələbat var və heç vaxt hər hansı məhdudiyyət olmayıb. Hər halda mənim atamın dövründə və mənim dövrümdə olmayıb və olmayacaq. Əksinə, biz hər vəchlə çalışırıq ki, insanların rus dilini daha yaxşı bilmələri, ona mükəmməl yiyələnmələri üçün əlavə şərait yaradaq. Bizdə tədris rus dilində olan 320-dən artıq məktəb var. Bütövlükdə şagirdlərimizin bir milyona yaxını rus dilində təhsil alır və ya onu ikinci dil kimi öyrənir. Səkkiz yüz min nəfər rus dilini ikinci dil kimi öyrənir. İki universitet - MDU və Seçenov Akademiyası fəaliyyət göstərir. Yaradıcı kollektivlər, əsasən teatrlar, demək olar ki, mütəmadi, çox tez-tez gəlirlər. Ona görə də rus dilinə tələbat var, o, yaşayır, necə deyərlər, özünü yaxşı hiss edir. Bu, bizə nə verir? Birincisi, sırf praktiki nöqteyi-nəzərdən hər hansı dili bilmək səni zənginləşdirir. Dili yaxşı bilmək sənə həm ədəbiyyata, həm də hər hansı elmi əsərlərə tam nüfuz etmək imkanı verir. Axı bizim alimlərimiz, məsələn, bir çox informasiyanı Rusiya mənbələrindən alırlar. Bu, insanlarımıza təkcə rusiyalı dostları və həmkarları ilə deyil, həm də digər MDB ölkələrində olanlarla ünsiyyət qurmağa imkan verir. Yəni bu ünsiyyət rus dili vasitəsilə aparılır. Bizdə bütün MDB ölkələri ilə, mən prezidentlərlə rus dilində danışırıq. Komandalarımız rus dilində ünsiyyət qurur. Biz görüşlər zamanı rusca danışırıq. Yəni rus dili bunları verir. Əlbəttə ki, bu, Azərbaycanda rus icması üçün daha bir rahatlıq amilidir. Bu, ölkələrimiz arasında müsbət dövlətlərarası münasibətlərin amillərindən biridir. Bu onu göstərir ki, yenə danışdığımıza qayıdaraq demək istəyirəm: rus dilinə bu cür münasibət Azərbaycan dilinə, bizim kimliyimizə, mədəniyyətimizə heç bir zərər vermir. Qətiyyən. Əksinə, bu, dost ab-havası yaradır. Təsadüfi deyil ki, biz təkcə bu sahədə deyil, həm də dinlərarası qarşılıqlı fəaliyyət, mədəniyyətlərarası əlaqələr məsələlərinin həyata keçirilməsində də fərqlənirik. Bakının Mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumunun keçirildiyi məkana çevrilməsi də təsadüfi deyil. Yəni hər şey qarşılıqlıdır. Zənnimcə, bizim siyasətimiz haqlı olduğunu sübut etdi. Dili siyasi motivlər üzrə sıxışdırmağa cəhd edənlər isə böyük səhvə yol verirlər.

- Siz, həmçinin demişdiniz ki, Rusiyada məqsədli təxribatçı fəaliyyətə yönəlmiş emiqrant yuvasına Azərbaycanda imkan verməyəcəksiniz. Bu, belə də oldu. Bunun üçün səylər tələb olundu?

- Xeyr, mənim deməyim kifayət idi. Mənə qulaq asdılar və qonşuluqdakı başqa bir istiqaməti seçdilər.

- İlham Heydəroğlu, qarşıdan gələn ildə rusiyalılara qısaca nə arzu edərdiniz?

- İlk ağlıma gələn, əlbəttə, sülhdür, 2025-ci ildə müharibə başa çatsın, insanlar evlərinə qayıtsınlar və sülh şəraitində yaşasınlar. Əlbəttə, bir-birini başa düşməyi öyrənsinlər. Təbii ki, Rusiyaya qarşı belə sanksiya siyasətini nəzərə alaraq, rəhbərliyə öz gücünə, qətiyyətinə inam arzulayıram, Prezidentin komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi diləyirəm. Çünki aydındır ki, bütün bunlar fəsadsız ötüşməyəcək. Rusiya cəmiyyəti hər hansı bir cəmiyyət kimi ağır dövrdə birləşir və biz Rusiyada bu konsolidasiyanı görürük. Arzu edirəm ki, belə də davam etsin.

Suallardan birinə cavab verərkən artıq qismən toxunduğum daha bir məqamı qeyd etmək istərdim: ölkələrimizi, xalqlarımızı və rəhbərliklərimizi daha çox birləşdirən nədir? Bu, öz milli köklərinə və ənənəvi dəyərlərinə sadiqlikdir. Bu gün bu, demək olar ki, bəzi regionlarda çox nadir haldır. Gah xarici idarəçilik, gah tam mənəvi deqradasiya, yaxud onların biri digəri ilə birlikdə. Yəni bu, bizi sərfəli şəkildə fərqləndirir. Dünyada gördüyümüz tendensiyalar, o cümlədən Trampın Prezident seçilməsi məhz onu göstərən amildir ki, o, elə bizimlədir. Necə deyərlər, ənənəvi dəyərlərə münasibətdə bir qayıqdayıq. Zənnimcə, bəşəriyyət üçün fəlakətli olan tendensiyanı tərsinə çevirə biləcəyik, bax bu, pozğunluq, nümayişkaranə iblislik ki, biz onu Paris Olimpiadasının açılışında gördük. Bu halların qarşısı alınmalıdır. Bunu liderlərə inanan cəmiyyət edəcək, bunu biz edəcəyik. Mütləq. Yoxsa biz azlıqda qalacağıq. Biz isə azlıqda qala bilmərik.

Əlbəttə, Yeni ildə bütün rusiyalılara xoşbəxtlik, əmin-amanlıq arzulayıram.

- İlham Heydəroğlu, bu ətraflı müsahibə üçün çox sağ olun.

- Siz də sağ olun.

2025-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci ildə növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı cari işlərin görülməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 000 000 (bir milyon) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

3. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 iyul tarixli 1354 nömrəli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 dekabr 2024-cü il

"Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamının ləğv edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 fevral tarixli 287 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 175 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 dekabr tarixli 389 nömrəli Sərəncamı) 3-cü və 6-cı hissələri ləğv edilsin.

2. "Azərbaycan təbii qazının dünya bazarına Cənub Qaz Dəhlizi vasitəsilə nəqli ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 oktyabr tarixli 15 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2013, № 10, maddə 1188 (Cild I) ləğv edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 dekabr 2024-cü il

Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən Məhəmməd Əsədov küçəsində dəmiryol xətti və Samur-Abşeron kanalı üzərində yerləşən yeni körpünün tikintisi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən Məhəmməd Əsədov küçəsində dəmiryol xətti və Samur-Abşeron kanalı üzərində yerləşən uzunluğu 100 metr, 6 aşırımdan ibarət yeni körpünün tikintisi məqsədilə 9.960.000,0 (doqquz milyon doqquz yüz altmış min) manat vəsait Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 18 dekabr 2024-cü il

Milli Məclisin Sədri Sahibə Qafarova Ankarada keçirilən tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyədə rəsmi səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, səfər çərçivəsində spiker Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən "2024 TÜBA və TÜBİTAK Elm Ödülləri Mərasimi"ndə iştirak edib.

Tədbirdə Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova TBMM Sədri Numan Kurtulmuşla görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasında rəsmi səfəri çərçivəsində Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə parlament rəhbərləri arasında təkbətək görüş keçirilib. Görüşdə qardaş ölkələrimiz və parlamentlərimiz arasında yüksəksəviyyəli əlaqələrə dair fikir mübadiləsi aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Numan Kurtulmuş yenidən Milli Məclisin Sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib.

O, iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayaraq, Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.

Rəsmi səfərə dəvətinə və göstərilən qonaqpərvərliyə görə TBMM Sədrinə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova yenidən qardaş ölkədə olmaqdan məmnunluğunu ifadə edib.

Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkilərinin keçirildiyini xatırladan spiker Sahibə Qafarova deyib ki, bu seçkilərin ən böyük xüsusiyyəti o idi ki, ilk dəfə olaraq parlament seçkiləri Azərbaycanın bütün suveren ərazilərində keçirildi.

Yenidən Milli Məclisin Sədri seçildikdən sonra, onu ilk olaraq TBMM Sədri Numan Kurtulmuşun təbrik etdiyini deyən spiker Sahibə Qafarova mövcud ənənəyə uyğun olaraq, ilk rəsmi səfərini də qardaş Türkiyəyə etməkdən məmnunluğunu bildirib.

Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərinin, ortaq tarixə, dilə, dinə, milli-mənəvi dəyərlərə malik olan xalqlarımızın birliyinin və həmrəyliyinin bizim üçün ən böyük dəyər olduğunu söyləyən Milli Məclisin Sədri vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin əbədi olan "Bir millət, iki dövlət" kəlamı özünü ən parlaq şəkildə təsdiq edir. Qeyd olunub ki, Prezident İlham Əliyevin də dediyi kimi, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa ölkələr yoxdur.

Görüşdə vurğulanıb ki, qardaş ölkələrimiz arasında münasibətlərin ən böyük xüsusiyyəti ondan ibarətdir ki, ölkələrimiz və xalqlarımız həm sevincli, həm də kədərli günlərdə bir yerdədirlər. Şuşa Bəyannaməsi isə bu müttəfiqliyin rəsmi ifadəsi və möhürüdür.

Söhbət zamanı əlaqələrin bu səviyyəyə gəlib çatmasında dövlət başçılarımızın müstəsna rolu qeyd edilərək, onların şəxsi dostluğunun və qardaşlığının, siyasi iradəsinin və qətiyyətinin münasibətlərin hazırkı yüksək səviyyədə olmasını təmin etdiyi bildirilib.

Görüşdə ölkələrimiz arasında qardaşlıq münasibətlərinin daha da genişləndirilməsinə parlamentlərin verdiyi töhfələr də yüksək qiymətləndirilib. Vurğulanıb ki, qanunverici orqanlarımız arasında əməkdaşlıq qardaş xalqlarımızın birbirinə daha da yaxınlaşmasına, ortaq dəyərlərimizin gələcək nəsillərə ötürülməsinə xidmət edir və ölkələrimiz arasındakı müttəfiqlik ruhuna uyğundur. Parlamentlərimizin həm ikitərəfli, həm də üçtərəfli formatlarda əməkdaşlıq etdiyi, o cümlədən beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyət göstərdikləri diqqətə çatdırılıb.

Söhbət zamanı parlamentlərimizin, dostluq qruplarının, həmçinin parlament komitələrinin əməkdaşlığının daha da genişləndirilməsi ilə bağlı məsələlər də nəzərdən keçirilib.

Görüşdən sonra Milli Məclisin Sədri Sahibə Qafarovanın Türkiyə Böyük Millət Məclisinin plenar iclas zalında salamlanması mərasimi olub.

Daha sonra Azərbaycan parlament nümayəndə heyəti 15 iyul 2016-cı ildə baş vermiş dövlət çevrilişi cəhdi zamanı TBMM-in zədələnmiş ərazilərini ziyarət edib.

"Azərbaycan"

Sahibə QAFAROVA: "Azərbaycan və Türkiyə parlamentləri arasında əlaqələr çox yüksək səviyyədədir və bütün istiqamətlər üzrə genişlənməkdədir"

Milli Məclisin Sədri Sahibə Qafarova və Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş arasında görüşdən sonra spikerlər mətbuat üçün bəyanatla çıxış ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, mətbuat konfransında çıxış edən Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş bir daha Azərbaycan Milli Məclisinin Sədrini salamlayaraq, bu səfərin yüksək səviyyədə olan parlamentlərarası əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Azərbaycan və Türkiyənin regionda sülh və sabitliyin, inkişafın təmin olunmasına mühüm töhfələrini qeyd edən TBMM Sədri həmçinin ölkələrimizin öncüllüyü ilə türk dünyasının daha da güclənməsi, türk dövlətləri arasında birliyin möhkəmlənməsi istiqamətində atılan addımları təqdir edib. Numan Kurtulmuş Azərbaycanın bu istiqamətdə atdığı addımları tarixi addımlar kimi qiymətləndirib.

O, Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfər, antiterror əməliyyatları nəticəsində ərazi bütövlüyü və suverenliyini təmin etməsindən sonra regionda davamlı sülhün və sabitliyin yaranması üçün yeni imkanların olduğunu deyərək, Zəngəzur dəhlizinin açılmasının önəmini vurğulayıb. TBMM Sədrinin sözlərinə görə, bu dəhlizin açılması region dövlətləri ilə yanaşı, regiona qonşu olan dövlətlərin də mənafeyinə cavab verir.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edib.

Sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirildiyini xatırladan spiker Sahibə Qafarova Milli Məclisin Sədri seçildikdən sonra ilk rəsmi səfərini, artıq ölkələrimiz arasında formalaşmış ənənəyə uyğun olaraq, qardaş Türkiyə Cümhuriyyətinə etdiyini bildirib. Sahibə Qafarova bu səfərin onun Azərbaycan Respublikası Milli Məclisinin Sədri kimi Türkiyə Cümhuriyyətinə artıq üçüncü rəsmi səfəri olduğunu, hər səfərində qardaş Türkiyənin daha da tərəqqisinin şahidi olduğunu deyib. O, qardaş Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında bütün sahələrdə hərtərəfli inkişaf etdiyini, böyük nailiyyətlər əldə etdiyini, artıq qlobal miqyasda gedən proseslərə təsir göstərdiyini, sülhə və sabitliyə töhfə verdiyini deyib.

Azərbaycan-Türkiyə münasibətlərinin hazırkı yüksək səviyyəsindən danışan Milli Məclisin Sədri deyib ki, müasir Azərbaycan-Türkiyə münasibətləri, xalqlarımızın birliyi və həmrəyliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını ən parlaq şəkildə təcəssüm etdirir. Ölkələrimiz və xalqlarımız həm sevincli, həm də kədərli günlərdə bir yerdədirlər və bütün məsələlərdə bir-birini qeyd-şərtsiz və tərəddüdsüz dəstəkləyirlər. Dövlət başçılarımız - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi, qətiyyəti və birgə səyləri sayəsində bu münasibətlərin özünün ən yüksək zirvəsinə - müttəfiqlik səviyyəsinə çatdığını deyən Sahibə Qafarova bildirib ki, əməkdaşlıq əlaqələrimiz bütün istiqamətlər üzrə hərtərəfli inkişaf edir. Dövlət başçılarımızın müəyyən etdikləri hədəflər, verdikləri tapşırıqlar uğurla icra olunur.

Türkiyə Böyük Millət Məclisində keçirdiyi müzakirələrdə parlamentlərimiz arasındakı əlaqələrin bir daha nəzərdən keçirildiyini bildirən spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, qanunverici orqanlarımız arasında əlaqələr hazırda çox yüksək səviyyədədir və müttəfiqlik ruhuna uyğun olaraq, bütün istiqamətlər üzrə genişlənməkdədir. Parlament sədrləri qarşılıqlı səfərlərlə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində də görüşür və müzakirələr aparırlar. Dostluq qrupları sıx dialoq içərisindədir. Daha öncədən əldə olunmuş razılaşmalara uyğun olaraq, artıq müxtəlif sahələrdə fəaliyyət göstərən komitələrimiz arasında da əməkdaşlıq dərinləşməkdədir.

Milli Məclisin Sədri həmçinin diqqətə çatdırıb ki, parlament nümayəndə heyətlərimiz arasında da çoxsaylı qarşılıqlı səfərlər həyata keçirilir. Xatırladılıb ki, bu günlərdə Türkiyə Böyük Millət Məclisinin böyük nümayəndə heyəti Bakıda Beynəlxalq Parlament Konfransında iştirak edib, işğaldan azad olunmuş ərazilərimizə səfər edib.

İkitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Pakistan kimi uğurlu üçtərəfli əməkdaşlıq formatlarının da mövcud olduğu qeyd edilib. O da diqqətə çatdırılıb ki, beynəlxalq platformalarda, parlament təşkilatlarında qarşılıqlı dəstək işimiz yüksək səviyyədədir. Nümayəndə heyətlərimiz bütün məsələlərdə bir-birini dəstəkləyir, ortaq mövqe nümayiş etdirirlər. Əməkdaşlığımızın mühüm istiqamətlərindən biri Türk Dövlətləri Parlament Assambleyası çərçivəsində digər türk dövlətlərinin parlamentləri ilə birgə fəaliyyətdir. Parlamentlərimiz türk dünyasının daha da sıx birləşməsi məsələsində üzərilərinə düşən vəzifələri yerinə yetirməyə çalışırlar.

Sonda müzakirələrin yekunu barədə də məlumat verən Milli Məclisin Sədri deyib ki, gəlinən fikir birliyi budur ki, onsuz da yüksək səviyyədə olan parlamentlərarası əlaqələrimizi daha da inkişaf etdirək, Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqlik münasibətlərinin, birlik və həmrəyliyinin daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə töhfə verək.

"Azərbaycan"

YAP Mərkəzi Aparatında müşavirə keçirilib



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar dekabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərlə əlaqədar ötən müddət ərzində görülmüş işlər ətrafında müzakirələr aparılıb, onların icra vəziyyətinin təhlili əsasında növbəti dövr üçün konkret vəzifələr müəyyən edilib, müvafiq tapşırıq və tövsiyələr verilib.

Demokratiyanın iki üzü - ədalətin ikili standartı

İsveçrə Parlamenti Milli Şurasının təklifinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Azərbaycan Respublikasının Milli Məclisi bu il dekabrın 17-də İsveçrə Parlamentinin aşağı palatası olan Milli Şuranın iclasında mövcud olmayan "Dağlıq Qarabağ münaqişəsi"nə dair beynəlxalq sülh forumunun təşkili ilə bağlı müzakirələr aparılmasından və Azərbaycanın bu bölgəsindən könüllü köçmüş erməni milliyyətli sakinlərin geri qaytarılmasına kömək göstərilməsi məqsədilə ölkə hökumətini belə bir konfrans keçirməyə çağırmaq təklifinin qəbul edilməsindən təəssüfləndiyini bildirir.

İsveçrə Milli Şurasının ermənipərəst üzvləri bilməmiş deyildirlər ki, Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması beynəlxalq hüquqla tanınmış və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bir sıra qətnamələri və digər beynəlxalq qurumların sənədləri ilə təsbit olunmuşdur. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsinin yekunu olaraq ölkəmizin bu ərazisinin Ermənistan tərəfindən 30 illik işğalına birdəfəlik son qoyulmuş, ötən ilin sentyabrında bir günlük antiterror əməliyyatı nəticəsində isə ərazidə Azərbaycanın dövlət suverenliyi bərpa olunmuşdur. Azərbaycana ölçüyəgəlməz dərəcədə böyük ziyan vuran silahlı təcavüz artıq geridə qalmışdır. Qəddarcasına etnik təmizləmə yolu ilə doğma torpaqlarından qovulmuş azərbaycanlı məcburi köçkünlərin geri dönməsinə şərait yaranmışdır. İşğal dövründə vəhşicəsinə viran qoyulmuş torpaqların bərpası və reinteqrasiyası üçün hazırda Azərbaycan dövləti tərəfindən intensiv işlər həyata keçirilir.

Bu gün Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması üçün ikitərəfli danışıqlar aparılır və artıq müəyyən nəticələr də vardır. Aydın məsələdir ki, hər hansı beynəlxalq təşəbbüs və hərəkətlər obyektiv olmalı, regionda mövcud reallıqlara, habelə suverenliyi və ərazi bütövlüyünü nəzərdə tutan hüquqi çərçivələrə uyğun gəlməlidir. Tərəflərin iradəsini saya salmayan və onlarla razılaşdırılmayan təşəbbüs və hərəkətlər normallaşma prosesini poza bilər.

Təəssüf doğuran məqamlardan biri də budur ki, erməni milliyətli sakinlərin Qarabağı könüllü surətdə tərk etməsi barədə absurd fikirlər səsləndirən, Azərbaycanı etnik təmizləmədə, mədəni irsin dağıdılmasında ittiham edən İsveçrə Milli Şurasının ermənipərəst üzvləri XX əsrin 80-ci illərinin sonlarında, Ermənistanın Azərbaycan Respublikasına qarşı silahlı təcavüzü ərəfəsində, eləcə də daha əvvəlki dövrdə bu ölkədəki ata-baba yurdlarından zorla qovulmuş və ya deportasiya edilmiş yüz minlərcə azərbaycanlının hüquqları barəsində susmağa üstünlük vermiş, 30 illik işğal dövründə Azərbaycanın şəhər və kəndlərinin yerlə yeksan edilməsinə, milli, mədəni və tarixi mirasının dağıdılmasına, 750 min azərbaycanlının öz vətənində didərgin salınmasına münasibət bildirməmişlər. Əksinə, erməni maraqlarının müdafiəsi naminə onlar İsveçrənin neytrallıq statusuna etinasızlıq göstərməyi, İsveçrə dövlətinin Azərbaycan barəsində siyasətini başqa istiqamətə yönəltməyə cəhd etməyi belə özlərinə rəva görürlər. İkili standartların ifadəsi olan bu cür qərəzli mövqe tamamilə yolverilməzdir.

Azərbaycan Respublikasının Milli Məclisi bunu da vurğulamağı zəruri sayır ki, İsveçrə Milli Şurasının 80 nəfər üzvünün təqdim edilmiş təklifin əleyhinə səs verməsi, 16 nəfərin isə bitərəf qalması, təklifin 96 səslə qəbul edilməsi Milli Şurada Cənubi Qafqaz bölgəsində cərəyan edən prosesləri obyektiv qiymətləndirən, Azərbaycana ədalətli münasibət bəsləyən sağlam düşüncəli deputatların da olduğunu göstərir. Təəssüf ki, çox vaxt onların səsi eşidilmir.

Azərbaycan parlamenti İsveçrə hökumətinin məsələ ilə bağlı obyektiv mövqeyini qiymətləndirir. Hesab edirik ki, bu ölkənin xarici işlər naziri İqnasio Kassisin hökumət adından deputatlara sözügedən təklifi rədd etməyi tövsiyə etməsi İsveçrə dövlətinin ərazi bütövlüyü və suverenlik prinsiplərinə sadiq olduğunu, özünün neytrallıq statusu ilə beynəlxalq hüquqa sadiqliyi arasında tarazlığı gözlədiyini nümayiş etdirir.

İsveçrə Milli Şurası tərəfindən qəbul edilmiş təklifin Kantonlar Şurasının müzakirəsinə də çıxarılacağını nəzərə alaraq, Milli Məclis parlamentin yuxarı palatasının üzvlərini məsələyə birtərəfli yanaşmadan çəkinməyə və Azərbaycan ilə İsveçrə arasında münasibətlərə zərbə vura biləcək təklifi rədd etməyə çağırır.

Azərbaycan Respublikasının Milli Məclisi beynəlxalq birliyin bütün üzvlərini Cənubi Qafqazda uzunmüddətli sülh və sabitlik yaradılması səylərinə mane ola biləcək təşəbbüs və hərəkətlərə yol verməməyə, dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə hörmət bəsləməyə səsləyir.

Bəzi ölkələr sülhə təhdid yaradırlar

"Azərbaycan-Ermənistan sülh gündəmində gəlinən nöqtə çox əhəmiyyətlidir, lakin xarici oyunçuların ambisiyaları regionda təhlükəsizliyə mandat vermək üçün prosesləri tormozlayır. Məsələn, Qərb ölkələri, xüsusilə, Fransa, şərq cinahdan Hindistan regional təhlükəsizliyə və sülhə təhdid yaradan bölücü xətlər yaratmağa çalışırlar".

Bu fikirləri "Azərbaycan" qəzetinə Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov deyib. Siyasi şərhçi bildirib ki, Ermənistan onların bu ambisiyalarını cilovlamaq əvəzinə, silahlanma indeksini yüksəldir. Bu isə onu deməyə əsas verir ki, regionda Azərbaycanın formalaşdırdığı reallıqları devirmək üçün sövdələşmə və açıq əməkdaşlıq kanallarının yaradılmasına təşəbbüslər göstərilir.

Ekspert qeyd edib ki, Azərbaycan regionda "Ermənistan mərkəzli" qütbləşmələrin qarşısını almaq üçün ilk növbədə təhdid üçün mənşə rolunu oynayan Ermənistana təzyiq edir. Bu təzyiq kampaniyası sülh və təhlükəsizlik naminə strateji səylərin tərkib hissəsi kimi başa düşülməlidir. Ölkəmiz regiondakı əlverişsiz mühit yaratmaq istəyən elementləri təmizləmək üçün müdafiə və təhlükəsizlik xərclərini artırır - bu, İrəvan üçün ciddi siqnal olmalıdır. "Bunun digər mənası odur ki, Azərbaycan sülh gündəliyinin qorunması, təhlükəsizliyin təmini üçün müəyyən tədbirlər görmək hüququndan yararlana bilər. Bura regional əməkdaşlıqda yeni səhifələr açacaq Zəngəzur dəhlizinin reallaşmasından tutmuş, qərbi azərbaycanlıların qayıdışını təmin etməyə qədər geniş məsələlər daxildir. Bu amillər Ermənistanın və onun himayədarlarının gizli gündəliyini sarsıtmağın perspektiv yol xəritəsidir. Üstəlik, nəzərə alınmalıdır ki, Ermənistanın silahlanması müqabilində öz havadarlarına yüksək mükafat təqdim etmək imkanı yoxdur. Yəni Ermənistan Azərbaycana qarşı balans yarada bilməz və ya geosiyasi tərəzini dəyişməyə cəhd edərsə, Bakı tərəfindən alternativ cəza əməliyyatlarına məruz qalar", - deyə A.Kərimov əlavə edib.

Onun sözlərinə görə, Ermənistanın xarici vektordakı problemləri ilə paralel olaraq daxili vəziyyəti də xaotikliyə meyillənir. Azərbaycan regionda xaosun qarşısını almaqdan ötrü Ermənistanın daxili tablosunu şəkilləndirməyi də hədəf seçə bilər. Başqa sözlə, Azərbaycan strateji müttəfiqi Türkiyə ilə birlikdə Ermənistanın təhlükəsizliyi üçün zəmanətverici gücdür. İrəvan buna "əks-təqdirdə" prinsipi ilə yanaşsa, o, mövcud regional səhnədəki yerinin necə dəyişəcəyi məsuliyyətini daşımalı olacaq.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Almaniya və Fransada siyasi qarışıqlıq birjaları alt-üst edir

Avropa fond bazarları siyasi təlatümlər fonunda bədbinlik nümayiş etdirir

Avropada fond bazarları Almaniya və Fransada davam edən siyasi qarışıqlıq fonunda həftəyə mənfi notla başlayıb. Alman DAX indeksi 0,45 faiz, Fransa CAC 40 indeksi 0,71 faiz, Euro Stoxx 600 indeksi isə 0,12 faiz ucuzlaşıb.

Avropanın iki ən böyük iqtisadiyyatı ABŞ-yə məhsul ixracat edənlərə rüsum tətbiqi təhlükəsi fonunda siyasi və iqtisadi problemlərlə mübarizə aparır. Amerikada isə əksinə, fond bazarlarında həftə müsbət başlayıb: Nasdaq texnologiya indeksi orada bir gecədə 1,24 faiz artaraq maksimuma çatıb, S&P 500 indeksi 0,38 faiz yüksəlib, Dow Jones sənaye indeksi isə 0,25 faiz ucuzlaşıb.

İki paytaxtın böhranı

Almaniyada kansler Olaf Şolts Bundestaqdan etimad səsi ala bilməyib və bu, ölkəni fevralda - 7 ay erkən seçkilərə aparır. Şoltsun üçpartiyalı hökumət koalisiyası keçən ay "Azad Demokratlar"ın iqtisadi proqramla bağlı fikir ayrılıqları fonunda birlikdən getməsindən sonra dağılıb.

Fransada Milli Assambleya dövlətin 2025-ci il büdcəsi ərəfəsində fəaliyyət göstərməsinə və müəssisələrin bağlanmadan (şatdaun) qaçmasına imkan verən qanunu təsdiqləyib. Ölkənin baş nazirinin növbəti dəfə dəyişikliyi fonunda Moody's reytinq agentliyi Parisin kredit reytinqini aşağı salıb. Bildirilir ki, Fransanın dövlət maliyyəsi ölkənin siyasi parçalanması səbəbindən əhəmiyyətli dərəcədə zəifləyəcək və bu, yaxın gələcəkdə böyük kəsiri azalda biləcək tədbirlərin miqyasını və həcmini məhdudlaşdıracaq. Proqnozlar, xüsusən də istehsal sektorunda vəziyyətin daha da pisləşəcəyini vəd edir. Almaniya və Fransa üçün istehsalat satınalma menecerləri indeksləri (PMI) gözlənildiyindən daha zəif olub. Bu, siyasi qeyri-sabitlik və ləng qlobal tələb fonunda dərinləşən tənəzzülün əlamətidir.

Bədbinlik artır

Çində kredit tələbinin 2009-cu ildən bəri ən aşağı səviyyəyə düşməsi ilə bağlı gələn xəbərlər həqiqətən də bədbinliyi artırır. Avropa biznesi gözlənildiyi kimi, buna dərhal reaksiya verib - Euro Stoxx Luxury 10 indeksi 0,82 faiz və Stoxx Europe 600 Eneryu indeksi 0,98 faiz azalıb.

Bu arada Avropa Mərkəzi Bankının sədri Kristin Laqard AMB-nin ötən həftə bu il dördüncü dəfə baza faiz dərəcələrini endirməsindən sonra azalma tendensiyasının davam edəcəyinə söz verib. O qeyd edib ki, avrozonada iqtisadi artım Trampın proteksionist tədbirlərindən zərər çəkə bilər.

Mütəxəssislər xatırladırlar: ABŞ seçkilərində Donald Trampın qələbəsi fonunda noyabr ayından bəri avro dollara nisbətdə ucuzlaşır.

Rizvan CƏFƏROV,
"Azərbaycan"

İnvestorlar Ermənistandan qaçırlar

Ermənistanı "xoşbəxt ölkə" kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır.

Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadan ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir.

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana sərmayə qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Rəsmi statistikanın açıqladığı məlumatlara görə, ilin birinci yarısında ümumi xarici investisiyaların xalis axını əvvəlki illə müqayisədə təxminən 236 milyon dollar azalıb. Birbaşa xarici sərmayələrdə azalma daha çox olub, 333 milyonu ötüb.

İlin birinci yarısında Ermənistanda xarici kapital real iqtisadiyyatdan gəldiyindən 91 milyon dollar çox çıxıb. Birbaşa investisiyalar baxımından xalis axın, demək olar ki, 55 milyon dollar mənfidir. Ermənistanın real iqtisadiyyatına yatırılan xarici investisiyalar baxımından həyəcanlı vəziyyət yaranıb. İnvestorlar vəsaitlərini Ermənistandan çıxarırlar.

Qeyd edək ki, Ermənistanda təhlükəsizlik mühiti nəinki investisiyaların daxil olmasına imkan vermir, həm də xaricə axını stimullaşdırır. Xarici kapital çıxır, çünki Ermənistanda investisiya inamı və qorunması son dərəcə aşağı səviyyədədir. Əvvəlki bir neçə ilin təcrübəsi çoxları üçün pis dərs və siqnal olub. Ermənistan hakimiyyətinin özbaşınalığı bir çox investorları problem qarşısında qoyub, onlar bu gün öz hüquqlarını beynəlxalq məhkəmələrdə qaldırır, hökuməti məhkəmə proseslərinə cəlb edirlər. Ermənistandan yerli kapital axını da gücləniib. İş adamları bununla bağlı həyəcan təbili çalmağa başlayıblar.

"Mantaşyants" iş adamları birliyinin həmtəsisçisi və prezidenti Vahram Mirakyan Ermənistan Dövlət Gəlirləri Komitəsinin biznesə qarşı həyata keçirdiyi terrora toxunarkən çox ciddi problemlərin mövcudluğundan şikayətlənib: "Bu yaxınlarda bir çox bizneslərə rast gəlirəm. Onlar pulları investisiyalar üçün çıxarırlar. Niyə? Çünki Ermənistanda vəziyyət gözlənilməzdir, 25000 dollar problemi şübhəsi halında iş adamını həbsxanaya atırlarsa, üstəlik, bunu bir savadsız vergi müfəttişinin göstərişi ilə edirlərsə, kim Ermənistana sərmayə qoymaq istəyər?"

Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son üç il yarım ərzində ölkə sənayesinə kredit qoyuluşları 42 milyon dollar azalıb.

Belə vəziyyətdə artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən 9 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllinin tapılmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Elçin CƏFƏROV,
"Azərbaycan"

Əllərini Azərbaycan xalqının qanına bulamış 15 erməni qatil məhkəmə qarşısına çıxarılır. 30 illik işğalçılıq siyasətinin qisasını döyüş meydanında alan Azərbaycan indi heç vaxt həyata keçməyəcək xəstə ideologiyalara qapılaraq xalqımıza qarşı faşist əməllər törətmiş uşaq qatillərini mühakimə edir...
İlahi ədalət də bu olsa gərək...

Azərbaycan mühakimə edir

1389 cinayət işi, 15 hərbi cinayətkar... və 30 illik işğalçılıq siyasəti

Düşmənlərini tanı

Milli kimliyimizə düşmən kəsilərək qoca, uşaq, qadın demədən xalqımızın başına olmazın müsibətlər gətirən, onlara qarşı bəşər tarixində rastlanmamış cinayət əməlləri törədən və hazırda Azərbaycan qanunları ilə yarqılanan hərbi cinayətkarların hər birinin adını qan yaddaşımıza yazmaq milli borcumuzdur...

Qukasyan Arkadi Arşaviri, Harutyunyan Arayik Vladimiri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi, Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli, Beqlaryan Vasili İvani və Qazaryan Erik Roberti...

Şərəfsizlərin sıralandığı bu siyahının sonuna üç nöqtə ona görə qoyuruq ki, milli kimliyimizə düşmən kəsilərək azərbaycanlılara qarşı kütləvi qətllər, soyqırımlar törədən faşist xislətli erməni cinayətkarlarının sayı bunlarla bitmir. Hələ Azərbaycan qanunları ilə mühakimə olunacaq neçə-neçə hərbi canilər növbələrini gözləyir, başda Xocalı qatili Serj Sarkisyan olmaqla...

2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalıdakı qanlı əməlləri nə üçün törətdiklərini vəhşiliyə xas qürrə ilə etiraf etmiş, jurnalistin "Yüzlərlə insanın ölümünə görə təəssüflənirsinizmi?" sualına "Heç bir peşmanlığım yoxdur" deyə cavab verən rəzil Serj Sarkisyan...

Həmin qatillərin də layiqli cəzalarını alacaqlarına şahidlik edəcəyimiz gün uzaqda deyil...

1987-ci ilin oktyabrından 2024-cü ilin 22 aprelinədək...

Azərbaycan Baş Prokurorluğunun məlumatına görə, 2 may 2024-cü il tarixdə Azərbaycan Baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü il tarixədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub. Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər (yuxarıda adlarını sadaladığımız - red.) cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilib.

Həmin maddələr 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırım), 105 (əhalini məhv etmə), 106 (kölelik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyqunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digərləridir.

İki əsrin hesabı

Amma sözügedən hərbi cinayətkarlar təkcə bu maddələrləmi ittiham olunurlar?

Bəs onlar azərbaycanlılara vurduqları mənəvi zərərin, yaşatdıqları travmaların hesabını necə ödəyəcəklər?

Dinc sakinlərimizə qarşı törədilən bu qanlı əməllərin günahı təkcə adları çəkilən 15 hərbi cinayətkarın yox, ümumilikdə dünya ermənilyi, onların arxasında duran xarici havadarların boynunadır. Məhz xaricdə yuvalanan ermənilərin və hamilərinin düzüb-qoşduqları planlar verdikləri hərtərəfli dəstəklə düz iki əsr boyu erməni faşistləri Azərbaycan xalqına müsibət ardınca müsibət yaşadıb.

Hələ 1992-ci il fevralın 26-na - əsrin faciəsi olan Xocalı soyqırımına qədər erməni qatilləri azərbaycanlılara qarşı ard-arda kütləvi qətliamlar törətmişlər. Azərbaycanın Ermənistanla həmsərhəd olan Qazax rayonunun Bağanıs Ayrım kəndinin, keçmiş Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdi. Ermənilərin təkcə Xocavənd rayonunun Qaradağlı kəndində törətdiyi qırğın nəticəsində kəndin hər 10 sakinindən biri şəhid olmuş, 104 nəfər və müdafiə dəstəsinin 15 üzvü əsir götürülmüş, onlardan 80 nəfəri qətlə yetirilmişdi.

1992-ci il fevralın 26-da Xocalıda erməni qatillərinin törətdiyi soyqırımı nəticəsində isə 613 nəfər qətlə yetirilib. Həmin zaman erməni vəhşiləri tərəfindən girov götürülən 1275 nəfərə ağlasığmaz işgəncələr verilib. Bu gün də həmin girovlardan 150 nəfərin taleyi məlum deyil.

Şahidlərin tükürpərdici ifadələri

1991-ci ildə Xocalının Meşəli kəndində qətliamlar törədən, girovlara tükürpərdici işgəncələr verən erməni canilərinin başçısı Vaqif Xaçatryanın məhkəməsində ifadə verən şahidlərin bir neçəsinin ifadələrinə diqqət edək:

Meşəli kəndinə qəfil hücum olduğunu söyləyən zərərçəkmiş Kamal Rəcəbov bunları deyib: "Evdə yatmışdım. Gördüm ki, güllə yağış kimi yağır və ermənilər tərəfindən kəndə od vurulub. Onların atəşi nəticəsində sağ budumdan güllə yarısı aldım. Qışın günündə ailəmdən uzaq qaldım. Güllə atışından 2 metrliyimdə olan ailə üzvlərimi təxliyə etməyə imkan yox idi. Yoldaşımı və 2 azyaşlı körpəmi itirdim. Onların qadınlara da yazığı gəlmədi. Gözümün qabağında 2 və 17 yaşında olan qızı vəhşicəsinə qətlə yetirdilər".

Prosesdə zərərçəkmiş şəxs qismində dindirilən Təmraz Məmmədov bildirib ki, Əsgəranda ermənilərin qətlə yetirdiyi sakinlərin meyitlərini yığıblar: "Orada bir qadını yandırmışdılar. Dedilər ki, Vaqif yandırıb. Mən Vaqifi hadisələr zamanı görmüşdüm. Ondan qabaq da Meşəlidə döyüşlər zamanı adını eşitmişdim. Laçın postunda saxlanılanda tanıdım, dedim ki, bu, Vaqifdir".

Meşəli hadisələrində atılan ilk güllənin atasına dəydiyini söyləyən zərərçəkən İbrahim Nurməmmədov isə gördüyü dəhşətləri belə dilə gətirib: "Atamı, bibilərimi, qayınatamı, qayınanamı, iki baldızımı, qaynımı öldürdülər. Ümumilikdə 9 ailə üzvüm şəhid olub. Hadisə günü şəhidləri, yaralıları ərazidən "Zil" markalı avtomobillə çıxarmışam. Bu Vaqifi çox yaxşı tanıyıram, bu da sürücü olub. Sürücülər bir-birini çox yaxşı tanıyırlar. Buna ömürlük cəza tələb edirəm".

Zərərçəkmiş şəxsin hüquqi varisi qismində dindirilən Şakir Qonaqov deyib ki, qardaşı Musa Qonaqov Meşəli kəndində şəhid olub: "Könüllü kimi oralarda xidmət edirdi. Hadisələr baş verəndən 3 gün sonra nəşi bizə verildi, həmin gecə dəfn elədik. Döyüş yoldaşları deyir ki, sona qədər vuruşub, son gülləsi ilə özünü öldürüb. Lakin nəşinin üstündə güllə izləri çox idi. Demək ki, şəhid olmuş qardaşımın nəşinə də güllə vurublar..."

Qisas qiyamətə qalmadı

Xocalı soyqırımından sonrakı dövrlərdə də Azərbaycan xalqı dəfələrlə erməni faşizmi ilə üz-üzə qaldı. Eləcə də Vətən müharibəsi dövründə savaş meydanından uzaqda yerləşən şəhər və kəndlərimizə raket zərbələri endirilərək mülki əhalimiz hədəfə alındı. Həmin zaman Gəncə şəhərini "vur" əmrini verdiyini kamera önündə fəxrlə dilə gətirən qatil Arayik Harutyunyan erməni xislətini dünyaya göstərməkdən çəkinmədi.

Qaniçən ermənilər iyrənc əməllərinin qisasının heç zaman alınmayacağının arxayınlığına qapılaraq elə düşünürdülər ki, Azərbaycan torpaqlarının işğalı, etnik təmizləmə ilə barışacaq, xalqımıza qarşı soyqırımları törədən qatilləri cəzasız qoyacaq.

Amma biz düşmənə nifrət və qəzəb hissimizi daim o faciələrin yaşandığı tarixlərdə olduğu kimi saxladıq.

Düzdür, ötən illər ərzində çox çarəsiz anlarımız oldu. 20 Yanvar, 26 fevral, 18 aprel günlərində... rayonlarımızın işğalı zamanlarında yaşanan müsibətlərə görə illərlə acı göz yaşları tökdük, erməni faşistləri tərəfindən qəddarlıqla öldürülən insanlarımızın taleyinə ağladıq. Məhrumiyyətlər içərisində zülm-zillətlə yurdlarından ayrı yaşamağa məcbur olan insanların halına ürəyimiz ağrıdı. Doğmaları gözləri önündə tikə-tikə doğranan xocalılılara təsəlli verməyə söz tapmadıq... Dərddən havalanan, qol götürüb saçlarını yola-yola oynayan anaların halına yandıq...

Xocalının bağrı qanlı körpələrinə, uşaqlarına ana-atalarının yoxluğunu izah edə bilmədik...

Bəli, Azərbaycan xalqı olaraq son dörd ilə qədər çox ağır sınaqlarla, dərd, ələmlə dolu zaman yaşadıq, amma düşmənə olan nifrətimizi heç zaman unutmadıq.

Xocalıda, Ballıqayada, Meşəlidə, Ağdabanda, Başlıbeldə və daha neçə-neçə sadalamadığımız ərazilərimizdə xalqımızın başına müsibətlər açan qaniçən düşmənə olan qəzəb hissimizi daim saxladıq.

Bir gün mütləq erməni qatillərindən intiqamımızı alacağımızın, Yer üzündən silinən ailələrin, süngülənən körpələrin, başı kəsilən uşaqların, təhqir olunan, diri-diri yandırılan, basdırılan qadınların, qocaların ruhları qarşısında onların qisasını qiyamətə qoymayacağımızın müqəddəs andını içdik.

Yurdundan didərgin salınaraq səfalət içərisində yaşamağa məcbur olan yüz minlərlə keçmiş məcburi köçkünümüzün bir gün mütləq torpaqlarına qovuşdurulacağının sözünü verdik.

Elə bəlkə də bu müqəddəs and sayəsində qəddimizi əyən ağrı-acı, kədər yükünə dözüm gətirə bildik, qəlbimizdə alışan birqərinəlik qisas alovu ilə düşmənlərin külünü göyə sovuraraq 44 günlük Vətən müharibəsində zəfərə yetdik.

2020-ci ildə Vətən müharibəsində qəhrəman Azərbaycan oğulları cəmi 44 günə əliyalın insanlarımızın qatilinə çevrilən qaniçən ermənilərin nəfəslərini kəsdilər. Torpaqlarımızı işğaldan azad edərək, Qarabağın, Şərqi Zəngəzurun ən uca zirvələrində üçrəngli bayrağımızı dalğalandırdılar.

2023-cü ildə Qarabağda keçirdikləri antiterror tədbirləri sayəsində cəmi 23 saata erməni quldurlarının mənfur yuvasını darmadağın edən yenilməz igidlərimiz bizə suverenliyimizi bəxş etdilər.

Polad iradəli azman oğullarımız ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman oğul və qızlarımızın, erməni faşizminin qurbanı olan günahsız mülki vətəndaşlarımızın da qisaslarını layiqincə aldılar.

Bu igidlərimizin şücaəti sayəsində xalqımızın qanına susamış erməni qatilləri birbir tutularaq qanunlarımız qarşısında sorğulanırlar.

Ən böyük cəza

Çağdaş Azərbaycan vətəndaşları olaraq, xalqımızın milli qürur yaşadığı bu tarixi hadisələrin şahidinə çevrilməyimizlə ikiqat qürur duyur, fəxr və xoşbəxtlik hissi keçiririk.

Onsuz da bilirdik, əmin idik ki, bir gün erməni cəlladlarından qisasımızı alacağıq. Amma Tanrıya şükürlər edirik ki, bu intiqamın alındığını, erməni qatillərinin cəzalarını aldıqları günləri gözlərimizlə gördük.

Xocalılılar, meşəlililər, ballıqayalılılar, ağdabanlılar, başlıbellilər... bir zaman onlara dəhşət yaşadan erməni qaniçənlərinin indi qorxudan tir-tir əsdiklərini, layiqli cəzalarını aldıqlarını gördülər.

O da haqqın yerini tapmasının bir ayrı təzahürüdür ki, Azərbaycanın torpaqlarını işğaldan azad edərək cənnətə çevirməsini, didərgin insanlarını qayıdış karvanları ilə yurda döndərməsini, Xocalıya yenidən həyatı qaytarmasını, Qarabağda separatizmin başını əzməsini, suverenliyini tam bərpa etməsini, xalqımıza qarşı cinayət əməlləri törədən qatilləri qanunları qarşısında cavab verməyə məcbur etməsini görmələrinin özü də elə erməni faşistləri, dünya ermənilyi, onlara havadarlıq edənlər üçün dünyadakı ən dəhşətli cəzadır...

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

Növbəti iclas

Məzahir Pənahovun sədrliyi ilə dekabrın 18-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın 13 dekabr 2024-cü il tarixli iclas protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin forması, sayı və hazırlanma qaydası ilə bağlı məsələyə baxılıb. Diqqətə çatdırılıb ki, bildirişdə seçicinin soyadı, adı və atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı, səsvermənin yeri və vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı göstərilir, habelə seçicilərin məlumatlandırılması məqsədilə səsvermə qaydaları illüstrasiyalarla aydın izah olunur. Komissiya üzvlərinin bildirişlə bağlı müzakirəsinin ardınca səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair 6 milyon 52 min 721 bildirişin mətbəə üsulu ilə hazırlanmasına qərar verilib.

Mərkəzi Seçki Komissiyasının iclasında daha sonra qarşıdan gələn bələdiyyə seçkilərində Klassik Xalq Cəbhəsi Partiyası və Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb və komissiya sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxsləri səlahiyyətli nümayəndələr kimi qeydə alıb.

Media subyektləri nümayəndələrinin geniş iştirak etdiyi iclasda həmçinin bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə məlumat verilib, namizədlərin irəli sürülməsi və qeydə alınması ilə bağlı statistik göstəricilər elan olunub və cari məsələlərə baxılıb.

QƏRAR № 53/260

Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 dekabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 13 dekabr tarixli iclasının protokolu təsdiq edilsin.

Sədr **Məzahir Pənahov**
Katib **Arifə Muxtarova**
Katib **Mikayıl Rəhimov**

18.12.2024

QƏRAR № 53/261

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin forması, sayı və hazırlanması qaydası haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 104.1-ci maddəsinə əsasən məntəqə seçki komissiyaları səsvermənin yeri və vaxtı haqqında seçiciləri xəbərdar etməlidirlər.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2013-cü il 5 iyun tarixli 5/28 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermənin yeri və vaxtı barədə bildirişlərin seçicilərə paylanması (çatdırılması) Qaydaları"nın 2.1-ci bəndinə uyğun olaraq bildirişin forması, sayı və hazırlanmasına dair tələblər Mərkəzi Seçki Komissiyasının qərarı ilə səsvermə gününə ən azı 40 gün qalmış təsdiq edilməli, müəyyən olunmuş formada və sayda poliqrafiya müəssisəsində hazırlanmalıdır.

Göstərilənlərlə əlaqədar olaraq seçicinin soyadı, adı, atasının adı ilə yanaşı, özünün və səs verəcəyi seçki məntəqəsinin ünvanı haqqında, səsvermənin vaxtı, səsvermə prosesində istifadə edilən şəxsiyyəti təsdiq edən sənədlərin siyahısı, səsvermə qaydaları və s. bu kimi maarifləndirmə xarakterli məlumatları da özündə əks etdirən bildirişin forması respublika üzrə daimi seçici siyahılarına daxil edilmiş seçicilərin sayı nəzərə alınaraq (məcburi köçkün statusu almış seçicilər istisna edilməklə), həmin saydan təqribən 3 faiz artıq olmaqla mətbəə üsulu ilə hazırlanmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü və 104.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişin forması təsdiq edilsin.

2. Səsvermənin yeri və vaxtı barədə seçicilərin məlumatlandırılmasına dair bildirişlərin sayı 6052721 (altı milyon əlli iki min yeddi yüz iyirmi bir) ədəd müəyyən edilərək mətbəə üsulu ilə hazırlansın.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr **Məzahir Pənahov**
Katib **Arifə Muxtarova**
Katib **Mikayıl Rəhimov**

18.12.2024

QƏRAR № 53/262

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Klassik Xalq Cəbhəsi Partiyası İdarə Heyətinin 2024-cü il 9 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Klassik Xalq Cəbhəsi Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Saleh Qədimalı oğlu Qədimalıyev
İlham Aprel oğlu Axund
Yengibar Zakir oğlu Əhmədov
Ayət Davud oğlu Abasov
Elşən Xasay oğlu Həşimov
Tural Şəmsəddin oğlu Quliyev
Rəşid Ərşad oğlu Əliyev

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:
Kamal Əşrəf oğlu Poladov
Bədəl Məmməd oğlu Abbaslı
Vahid Əmirxan oğlu Cəbrayılov
Ağagül Nəhməd oğlu Əmənov
Şahin Əliş oğlu Vəliyev
Tərlan Əsgər oğlu Əhmədov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr **Məzahir Pənahov**
Katib **Arifə Muxtarova**
Katib **Mikayıl Rəhimov**

18.12.2024

QƏRAR № 53/263

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Azərbaycan Demokratik Maarifçilik Partiyası Ali Məclisinin 2024-cü il 14 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində aşağıdakı şəxslər Azərbaycan Demokratik Maarifçilik Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

Səlahiyyətli nümayəndələr:
Cəfər İsa oğlu Əliyev
Məmməd İsmayıl oğlu Bayramov
Paşa Məmməd oğlu Bayramov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:
Xuraman Sahib qızı Səfərova.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr **Məzahir Pənahov**
Katib **Arifə Muxtarova**
Katib **Mikayıl Rəhimov**

18.12.2024

Baş prokuror konfrans iştirakçıları ilə görüşüb

Dekabrın 18-də baş prokuror Kamran Əliyev ölkəmizdə Türk Ədliyyə Təlim Şəbəkəsinin "Hüquq münasibətlərində transmilli aspektlər: müasir çağırışlar və hədəflər" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüşüb.

Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikasından olan qonaqları salamlayan baş prokuror tarixi bağları və ortaq dəyərləri olan qardaş və dost türk dövlətlərinin müxtəlif qurumları, o cümlədən prokurorluq və ədliyyə orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.

Baş prokuror Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

11 dekabr 2022-ci il tarixdə İstanbul şəhərində özündə üzv statusunda Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ədliyyə və prokurorluq orqanlarının təlim-tədris mərkəzlərini və akademiyalarını, eləcə də müşahidəçi statusunda Macarıstan və Şimali Kiprin müvafiq qurumlarını birləşdirən Türk Ədliyyə Təlim Şəbəkəsinin (Turkic Judicial Training Network) təsis edilməsinin bu istiqamətdə atılan mühüm addımlardan biri olduğu vurğulanıb.

Şəbəkənin üzv ölkələrin hüquq-mühafizə orqanları arasında əməkdaşlığı daha da dərinləşdirəcəyi və effektiv fəaliyyət göstərmələrinə imkan verəcəyi qeyd olunub. Kamran Əliyev böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq-mühafizə orqanlarının akademik dairələri arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla, keçirilmiş konfransın müasir zamanın tələblərinə uyğun hüquq tətbiqetmə sahəsində rəqəmsallaşma üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirib.

Baş prokuror cari ildə ölkəmizdə keçirilmiş dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri kimi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29, həmin tədbir çərçivəsində Azərbaycan Prokurorluğunun xarici tərəfdaşlarla birgə təşkil etdiyi yüksəksəviyyəli plenar sessiya, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu İllik Konfransının və Ümumi Yığıncağın uğurla keçirildiyini bildirib.

Konfrans iştirakçıları göstərilmiş qonaqpərvərliyə görə təşəkkür ifadə edərək dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinə böyük önəm verdiklərini qeyd etmiş, peşəkar platformada, o cümlədən elm-tədris sahəsində əməkdaşlığın vacibliyini qeyd etmişlər.

Qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Sonda xatirə fotosu çəkilib.

"Azərbaycan"

Türkiyə nümayəndə heyətinin Azərbaycana səfəri davam edir

Azərbaycanda səfərdə olan general-leytenant Tuncay Altuğun rəhbərlik etdiyi Türkiyə nümayəndə heyəti Azərbaycan Ordusunun rəhbər vəzifəli şəxsləri ilə bir sıra işgüzar görüşlər keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, türkiyəli nümayəndə heyəti ilə görüşən Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Quru Qoşunları Komandanı general-polkovnik Hikmət Mirzəyev onlara Azərbaycan Ordusunun Quru Qoşunlarının xidməti-döyüş fəaliyyəti, həyata keçirilən islahatlar, Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində görülən işlər və qazanılan uğurlar haqqında məlumat verib.

Qardaşlıq və dostluq üzərində qurulan Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının ordumuzun Quru Qoşunlarının formalaşması və inkişafında çox vacib yerə malik olduğu ifadə edilib.

Səfər çərçivəsində Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində davam edən görüşdə müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunları Komandanlığının nümayəndə heyətini mərkəzin fəaliyyəti ilə tanış edib.

Azərbaycan və Türkiyə arasında mövcud hərbi əməkdaşlığın Hərbi Hava Qüvvələrimizin inkişafında çox vacib yerə malik olduğu ifadə edilib və bunun hərbi aviasiyamızın arsenalının gücləndirilməsində əhəmiyyəti xüsusi vurğulanıb.

Sonra Azərbaycan Hərbi Dəniz Qüvvələrində olan türkiyəli qonaqlar Hərbi Dəniz Qüvvələri Komandanı vəzifəsini müvəqqəti icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov ilə görüşüblər.

Hərbi Dəniz Qüvvələrinin əsas bazası ilə tanışlıq zamanı Türkiyə Silahlı Qüvvələrinin nümayəndə heyətinə buranın fəaliyyəti barədə ətraflı məlumat verilib, Azərbaycan və Türkiyə hərbi dənizçilərinin beynəlxalq təlimlərdə qazandığı uğurlardan danışılıb.

Görüşdə həmçinin birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti, eləcə də digər maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş maliyyə forumu keçirilib

Dekabrın 18-də Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş maliyyə forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilən forumun iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Forumda Ulu Öndərin və şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışında Naxçıvanın muxtariyyət və inkişaf tarixinə nəzər salıb. Qeyd edib ki, Naxçıvan muxtariyyət qazandıqdan sonra 1970-ci ilə qədər məqsədli şəkildə inkişafdan kənarda saxlanılıb. Lakin Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə muxtar respublikanın həyatında yeni mərhələ başlanıb. Ulu Öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi isə muxtar respublikanı növbəti işğal təhlükəsindən qoruyub, müstəqil dövlətçiliyimizin əsasları bu torpaqda işlənib hazırlanıb. Bu gün 100 illik muxtariyyət tarixini qeyd edən Naxçıvan Zəngəzur dəhlizinin açılması və dövlət proqramının icrası perspektivlərində daha böyük inkişaf və tərəqqiyə hədəflənib. Bu da müdrik dövlət xadimi, Prezident İlham Əliyevin liderlik fəaliyyətinin nəticəsidir.

Son 2 ildə muxtar respublikada yeni idarəetmə metodunun tətbiqi sahəsində aparılan islahatların həm də maliyyə sektorunu əhatə etdiyini diqqətə çatdıran səlahiyyətli nümayəndə xüsusilə vurğulayıb ki, Prezidentin tapşırıqlarına uyğun olaraq maliyyə intizamının gücləndirilməsi, büdcənin düzgün tərtibi və icrası, yerli gəlirlərin artırılması və dotasiyanın azaldılması istiqamətində ardıcıl işlər aparılır. Əgər 2 il bundan öncə Naxçıvan Muxtar Respublikası büdcəsində yerli gəlirlər 20-25 faiz idisə, bu ilin sonunda yerli gəlirlərin həcmi 50 faizdən yüksək olacaq. Ötən 2 ildə muxtar respublikada dövlət satınalmalarının qanunvericiliyin tələblərinə uyğun tətbiqi sahəsində də sistemli iş aparılır ki, bu da dövlət vəsaitindən təyinata uyğun düzgün istifadəni təmin edir.

Fuad Nəcəfli maliyyə forumunda yeni hədəflərin müəyyənləşəcəyini və muxtar respublikada dövlət-maliyyə siyasətinin həyata keçirilməsi sahəsində faydalı olacağını bildirib, forumun işinə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibətilə təbriklərini çatdıran Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov dövlət başçısının maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqların muxtar respublikanın inkişafı üçün hazırlanan strateji sənədlərdə də öz əksini tapdığını diqqətə çatdırıb. Qeyd edib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın tədbirlər planında "Dövlət müəssisə və şirkətlərinin fəaliyyətində maliyyə hesabatlılığı və şəffaflığın gücləndirilməsi" bəndi nəzərdə tutulub.

Vüqar Gülməmmədov vurğulayıb ki, ötən ildən muxtar respublikada aparılan audit və təhlillər bəzi sahələr üzrə irəliləyişlərin olduğunu göstərir. Belə ki, büdcənin icrası barədə və satınalmalara dair hesabatların əsasən vaxtında təqdim olunması, malların, iş və xidmətlərin "Dövlət satınalmaları haqqında" qanunda göstərilmiş prosedur və metodlar tətbiq olunmaqla alınmasının genişləndirilməsi, əmtəəsiz alış əməliyyatlarının azalması kimi bir çox istiqamətlərdə müsbət dəyişikliklər qeydə alınıb. Bununla belə dövlət auditinin nəticələri hələ də təkmilləşdirilməli sahələrin olduğunu göstərir.

Hesablama Palatasının sədri rəhbərlik etdiyi qurumun 2021-2025-ci illəri əhatə edən Strateji Planda hədəflərdən birinin də maraqlı tərəflərlə əməkdaşlığın genişləndirilməsi olduğunu vurğulayıb. Qeyd edib ki, bu hədəf üzrə görüləcək ən vacib tədbirlər sırasında dövlət orqanları üçün dövlət maliyyəsinin müxtəlif sahələrində təlimlərin keçirilməsi ilə dəstəyin verilməsidir. Gələcəkdə muxtar respublikada fəaliyyət göstərəcək kadr potensialının gücləndirilməsi üçün Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığa başlanılıb. Növbəti ildən "Dövlət auditi" proqramı üzrə praktik təlimlər keçiriləcək.

Azərbaycan Respublikası maliyyə nazirinin müavini Azər Bayramov çıxışında qeyd edib ki, son 22 ildə Naxçıvan Muxtar Respublikasının büdcəsinin həcmi 13,2 dəfə artaraq 539,3 milyon manata çatıb. Bununla yanaşı, muxtar respublikanın büdcəsinin öz gəlirləri 16,5 dəfə artaraq 202,8 milyon manata yüksəlib. "Naxçıvan Muxtar Respublikasının sosial iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda icrası planlaşdırılan tədbirlərin maliyyə təminatı məqsədilə Milli Məclis tərəfindən qəbul edilən gələn ilin dövlət büdcəsində 150 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Gələn il dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən muxtar respublikaya ayrılan dotasiya 285,7 milyon manat təşkil edəcək. Naxçıvan Muxtar Respublikasının öz gəlirləri isə 219,5 milyon manat proqnozlaşdırılır.

Maliyyə nazirinin müavini bildirib ki, bu il Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin Naxçıvan Xəzinədarlıq İdarəsi yaradılıb. Artıq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 15-dən çox mərkəzi icra hakimiyyəti orqanının yerli bölmələrinə xəzinə xidmətlərinin göstərilməsi sözügedən idarə tərəfindən həyata keçirilir. Ümumilikdə idarə tərəfindən il ərzində 500 milyon manatdan çox məbləğdə vəsait üzərində xərc əməliyyatlarının aparılması nəzərdə tutulur. Bununla yanaşı, hazırda muxtar respublikanın dövlət Xəzinədarlığın İnformasiya İdarəetmə Sisteminə və Büdcə Məlumat İdarəetmə Sisteminə qoşulması istiqamətində işlər aparılır.

Forumda Milli Məclisin deputatı Ziyad Səmədzadə və Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov çıxış edib, Naxçıvan Muxtar Respublikasında aparılan islahatların müsbət nəticələrindən danışıblar.

Sonra Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş videoçarx təqdim olunub. Forum maliyyə və vergi istiqamətləri üzrə panel müzakirələrlə işini davam etdirib.

Qeyd edək ki, muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının, iri sahibkarlıq subyektlərinin rəhbərləri və onların maliyyə mühasibatlıq üzrə məsul şəxslərinin iştirak etdiyi maliyyə forumunun məqsədi mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması, vergi münasibətlərinin səmərəliliyinin artırılmasının konkret aspektlərinin vacibliyini nəzərə alaraq bu sahədə maarifləndirmə işi aparmaqdır.

Qərbi Azərbaycan İcmasının fəaliyyəti ölkəmizdən kənarda da dəstəklənir

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il martın 26-da imzaladığı fərmanında da bildirildiyi kimi, azərbaycanlılara qarşı soyqırımı əsrlər ərzində aparılıb və əsas məqsədi tarixi Azərbaycan ərazilərini ələ keçirmək olub.

Çar Rusiyasının dəstəyi ilə məqsədli şəkildə Cənubi Qafqaza köçürülən ermənilərin 200 ildən çox qəsbkarlığı, erməni vandalizmi 1905-ci ildən daha da intensivləşməyə və açıq forma almağa başlamışdır. Bu "ənənə" Azərbaycanın qərb hissəsində xüsusilə amansız olmuşdur. Ermənistan ordusu terrorçu "Daşnaksütyun" partiyasının silahlı birləşmələri ilə əlbir olaraq 1918-1920-ci illərdə İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Sürməli, Şərur və digər bölgələrdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş və etnik təmizləmə həyata keçirmişlər.

Yüz minlərlə azərbaycanlının öldürüldüyü İrəvan quberniyasında vaxtilə əhalinin 80 faizindən çoxunu təşkil etmiş azərbaycanlılar artıq 1921-ci ildə həmin ərazidə etnik azlıq təşkil etməyə başlamışdır. 1948-1952, 1987-1991-ci illərdə aparılmış etnik təmizləmə nəticəsində azərbaycanlılar tamamilə oradan qovulmuşdular. Hazırda bir nəfər də olsun azərbaycanlı indi Ermənistan adlanan o ərazidə qalmayıb və azərbaycanlılara məxsus mədəni irs tamamilə dağıdılıb.

İfrat millətçi "Daşnaksütyun" partiyasının silahlı birləşmələri tərəfindən ötən əsrin əvvəllərində Bakıda törədilmiş kütləvi qətliamlar əvvəlki və sonrakı dövrlərdə tarixi Azərbaycan torpaqlarında xalqımıza qarşı həyata keçirilmiş genişmiqyaslı vəhşiliklərin dəhşətli tərkib hissəsidir.

Ermənistan beynəlxalq öhdəliklərinə rəğmən irqçi siyasətini günü bu gün də davam etdirir. Bu ölkə azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına mane olur, azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlər və terror aktları törətmiş Qaregin Njde, Andranik Ozanyan, Drastamat Kanayan, Monte Melkonyan kimi ünsürləri şöhrətləndirir və Njdeizm kimi irqçi ideologiyanı dövlət səviyyəsində təşviq edir.

Ermənilərin Cənubi Qafqaza ayaq basdığı ilk aylardan Azərbaycan xalqı, eləcə də azərbaycanlılarla dinc və sülh şəraitində yaşayan digər azsaylı xalqlardan olan ailələr də erməni hücumlarına, qətliamlarına məruz qalmış, ən nəhayət, qaçqınlıq və köçkünlük problemi ilə üzləşmişlər. Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar. Ötən əsrin əvvəllərində dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə soydaşımız dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistan monoetnik dövlətə çevrilmişdir.

Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır. Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur.

Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır. Təəssüf ki, sovet hakimiyyəti illərində bu barədə insan hüququnun qorunması və ədalətsizliyin qarşısının alınması rus məmurlarının dəstəyi ilə həllini tapmamışdır. Şükürlər olsun ki, Azərbaycan tarixi müstəqilliyinə qovuşduqdan sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində erməni vandalizminə məruz qalmış insanların pozulmuş hüquqlarının bərpasının əsası qoyulmuşdur. Ulu Öndərin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və milli ordumuzun şücaəti sayəsində 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir.

"Qayıdış Konsepsiyası"nın tam həllinə nail olmaq üçün Qərbi Azərbaycan İcmasının Ümumdünya İnsan Hüquqları Günü münasibətilə tərəqqipərvər bəşəriyyətə ünvanladığı bəyanatında Ermənistanın qərbi azərbaycanlıların qayıdış hüququnu inkar etməklə insan hüquqlarını kobud şəkildə pozmağa davam etməsini, həmçinin bəzi xarici ölkələrin etnik və dini ayrı-seçkilik siyasəti nəticəsində Azərbaycan xalqının böyük ədalətsizliklə üzləşdiyi ciddi şəkildə diqqətə çatdırılır. "Əlavə narahatedici hal ondan ibarətdir ki, bəzi ölkələr azərbaycanofob, ayrı-seçkilik siyasətlərini "insan hüquqları" adı altında pərdələməyə çalışırlar. İnsan hüquqlarına ən böyük zərbəni məhz bu cür ikiüzlü siyasətlər vurur. Biz mahiyyətcə irqçi olan bu yanaşmaları qətiyyətlə pisləyir, bu cür hərəkətləri ifşa etmək üçün gələcəkdə də səylərimizi əsirgəməyəcəyimizi bildiririk.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoymasını və bununla da yüz minlərlə keçmiş məcburi köçkünün hüquqlarının bərpasını alqışlayırıq. Həmçinin qeyd etməliyik ki, Prezident İlham Əliyevin qərbi azərbaycanlıların dinc şəkildə qayıdış hüququnun təmin edilməsi sahəsində göstərdiyi səylər, o cümlədən icmamız tərəfindən dekabrın 5-6-da keçirilmiş qayıdış hüququna dair ikinci beynəlxalq konfransa göndərdiyi tarixi müraciəti bizim qayıdış hüququmuza və bütövlükdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin icrasına böyük töhfədir.

Biz beynəlxalq ictimaiyyəti qərbi azərbaycanlıların qayıdışı sahəsində davam edən səyləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə xidmət edən mühüm töhfə kimi alqışlamağa və dəstəkləməyə çağırırıq" - bəyanatda bildirilir.

Xatırladaq ki, ermənilər tərəfindən şantaj, təhdid və zor gücünə öz dədə-baba yurdundan qovulan insanlar xarici ölkələrdə də çoxluq təşkil edirlər. Qardaş ölkə olan Türkiyədə bu gün təxminən 1,5 milyon nəfərdən çox qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində Qərbi Azərbaycan İcmasının (QAİ) Türkiyə ofisinin açılışı olub. Türkiyənin dövlət rəsmilərinin, vilayət rəhbərliyinin, ziyalıların və İzmirdə yaşayan azərbaycanlıların iştirakı ilə təşkil olunan mərasimdə Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Qərbi Azərbaycan İcmasının Türkiyə təmsilçisi Asif Qurban mətbuata açıqlamasında bu ofisin QAİ-nin Azərbaycandan kənarda açılan ilk ofislərindən olduğunu bildirib və Türkiyədə yaşayan Qərbi azərbaycanəsilli şəxsləri ətrafında birləşdirmək, qərbi azərbaycanlıların tarixi vətənlərinə qanunauyğun qayıdış hüququnu təşviq etmək məqsədi daşıdığını vurğulayıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov iştirakçılara XIX əsrdə çar Rusiyası tərəfindən Azərbaycana qarşı aparılan demoqrafiyanın dəyişdirilməsi siyasəti haqqında geniş məlumat verib, bunun davamında XX əsrdə Ermənistanın məqsədyönlü siyasəti ilə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yurdlarından didərgin salındığını bildirib. Səfir bir sıra dövlətlərin Azərbaycana qarşı siyasətində önə çıxan ikili standartlara diqqət çəkərək, qərbi azərbaycanlıların dədə-baba yurdlarına qayıtması hüququna etinasız yanaşmanın yolverilməz olduğunu qeyd edib. O, ümidvar olduğunu bildirib ki, Ümummilli Lider Heydər Əliyevin anım günü kimi önəmli bir tarixdə açılışı həyata keçirilən QAİ-nin Türkiyə təmsilçiliyi Azərbaycan həqiqətlərinin Türkiyə ictimaiyyətinə çatdırılmasında fəal rol oynayacaq.

Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla işi gücləndirmək kimi məsələlər yer alır.

Çar Rusiyasının, sonralar da sovet hökumətinin dəstəyi ilə öz tarixi torpaqlarından, dədə-baba yurdlarından zorla qovulan azərbaycanlılar Orta Asiya ölkələrində də çoxluq təşkil edir. Bunu cari ilin sentyabr-oktyabr aylarında "Özbəkistanda yaşayan Qərbi Azərbaycanlılar" İctimai Birliyinin yaradılması da təsdiq edir. İctimai Birliyə rəhbərlik əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Yusif oğlu Abdullayevə etimad göstərilib. Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Birliyin yaradılması və fəaliyyətə başlaması münasibətilə keçirilən tədbirin iştirakçıları tarixi faktlarla Qərbi Azərbaycanda ermənilərin əsrlər boyu azərbaycanlılara qarşı törətdiyi etnik təmizləmə və deportasiya haqqında, eləcə də XIX-XX əsrlərdə azərbaycanlıların Qafqazın və Qərbi Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni mühitində oynadıqları mühüm rol barədə məlumatlandırılıb.

Əslən Qərbi Azərbaycandan olan Vidadi Qurbanov, İlham Abdullayev, Qalib Müslümov və digərləri onların dünyanın harasında yaşamasından asılı olmayaraq, öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrinin vacibliyini yüksək dəyərləndiriblər. Azərbaycan dövlətinin, habelə Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütmüş olduğu siyasətə tam dəstək olduqlarını, onların əlaqələndirilməsinin, məlumatlandırılmasının və mütəşəkkil hərəkət etməsinin vacibliyini vurğulayıblar.

Özbəkistanda jurnalist kimi fəaliyyət göstərən, əslən Qərbi Azərbaycandan olan Qulu Kəngərli mətbuata açıqlamalarında sözügedən təşəbbüsü dəstəkləyib. O, hazırkı Ermənistan ərazisində olan toponim və tarixi abidələrdən söz açaraq, hamısının türk mənşəli olduğunu qeyd edib. Q.Kəngərli Qərbi Azərbaycana qayıdış konsepsiyasının Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olduğunu bildirib.

Görünən odur ki, erməni terroru nəticəsində uzun illər boyu öz doğma torpaqlarından uzaq düşmüş insanlar haçansa öz yurdlarına qayıdacaqlarına böyük inam bəsləyirlər. Qərbi azərbaycanlıların hüquqlarının bərpası və onların öz ata-baba torpaqlarına qayıtması üçün Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasət, habelə Qərbi Azərbaycan İcmasının bu sahədəki çoxşaxəli fəaliyyəti ölkəmizdən kənarda da rəğbətlə dəstəklənir.

Rəhman SALMANLI,
"Azərbaycan"

2025-ci ilin dövlət büdcəsi iqtisadi və sosial inkişafı daha da dərinləşdirəcək

"2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi qəbul olunub və parlamentdə aparılan müzakirələrdən sonra gəlir və xərclərə ayrılan vəsait 40 milyon manat artırılıb. Növbəti il dövlət büdcəsindən 41,4 milyard manat vəsaitin xərclənməsi nəzərdə tutulub".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O bildirib ki, növbəti il prioritet istiqamətlərə ayrılan vəsaitin həcmində artımlar var. Belə ki, sosial istiqamətə 16,9 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Bu da ümumi büdcə xərclərinin 41 faizi deməkdir. Bu, eyni zamanda növbəti il sosial paketin reallaşmasına imkan verəcək. Nəticə etibarilə 2025-ci ilin dövlət büdcəsi 3 milyondan çox vətəndaşımızı əhatə edən sosial paketin həyata keçirilməsinə maddi şərait yaradacaq.

"17 milyard manata yaxın vəsaitin bu istiqamətə ayrılması da sosial paketin dərinləşməsi anlamına gəlir. Digər prioritet istiqamətlərə ayrılan vəsaitlərin həcmində də artımlar olacaq. Ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyin daha da möhkəmlənməsi əsas istiqamətlərdəndir. Bu istiqamətə 8 milyard manatdan artıq vəsait ayrılacaq. Bu, büdcə xərclərinin təxminən 20,3 faizi deməkdir. Bu yöndə daha çox məbləğin ayrılması təhlükəsizliklə bağlıdır. Məlumdur ki, bəzi ölkələr tərəfindən Ermənistan dayanmadan silahlandırılır. Ermənistanın mütəmadi silahla təmin olunması Azərbaycanın da müdafiə xərclərini artırmasını zəruri edir", - deyə siyasətçi əlavə edib.

Deputat qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası ilə bağlı ayrılan vəsait davam etdiriləcək. Gələn il ən azı 4 milyard manat bu istiqamətə yönəldiləcək. Əvvəlki illəri də nəzərə alsaq, növbəti ilin proqnozu da daxil olmaqla, dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin bərpasına 22 milyard manat vəsaitin ayrılması həyata keçirilib.

Təhsil və səhiyyə xərclərinin də artdığını vurğulayan V.Bayramov bildirib ki, bu sektorlarda islahatların dərinləşməsi həm də əməyin qiymətləndirilməsində keyfiyyət meyarlarından istifadə edilməsi ilə bağlıdır: "2025-ci il cənab Prezidentin müəyyənləşdirdiyi prioritet sahələrə uyğun olaraq dövlət büdcəsindən daha çox vəsaitin ayrılması təmin ediləcək. Bu da, təbii ki, iqtisadi və sosial inkişafın daha da dərinləşməsini stimullaşdıracaq".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

İqtisadiyyat və sosial həyat

Serbiya ilə enerji əməkdaşlığının inkişafı müzakirə olunub

Serbiyada bu ölkənin dağ-mədən və energetika naziri ilə iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi, o cümlədən enerji üzrə işbirliyinin inkişafı barədə müzakirə aparılıb.

İqtisadiyyat nazirinin müavini Anar Axundovun rəhbərlik etdiyi nümayəndə heyəti Serbiyaya səfər çərçivəsində Belqradda bu ölkənin dağ-mədən və energetika naziri Dubravka Cedoviç-Handanoviçlə görüşüb. Görüşdə SOCAR-ın və Serbiyanın müvafiq dövlət şirkətlərinin nümayəndələri iştirak ediblər.

Görüş zamanı bildirilib ki, Azərbaycan Avropanın, o cümlədən Serbiyanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Ölkələrimiz arasında iqtisadi əlaqələr qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsipləri əsasında genişlənir. Energetika sahəsi ikitərəfli iqtisadi tərəfdaşlığın gücləndirilməsində önəmli faktordur.

Tərəflər iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi məsələləri, o cümlədən Serbiyanın Niş şəhəri yaxınlığında qaz elektrik stansiyasının birgə tikintisi imkanları barədə müzakirə aparıblar.

Yanvar-noyabr aylarında DOST mərkəzlərində 850 min vətəndaşa xidmət göstərilib

Bu ilin yanvar-noyabr aylarında DOST mərkəzlərində 850 min vətəndaşa xidmət göstərilib.

2019-cu ilin may ayından ölkəmizdə artıq 7 DOST mərkəzi açılıb. Həmin mərkəzlərdə 160 sosial xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir. DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,4 faiz təşkil edir.

"Şuşa", "Xankəndi", "Kəlbəcər", "Zəngilan"... dünya sularında üzür

Bu, müdrik Prezidentimiz İlham Əliyevin təşəbbüsü və tapşırığıdır - Azərbaycanın dünya sularında üzən gəmilərinin bir çoxu şəhər və rayonlarımızın, o cümlədən işğaldan azad olunmuş bölgələrimizin adını daşıyır. Elə götürək yola salmağa hazırlaşdığımız 2024-cü ilin yadigarları olan "Zəngilan" tankerini, "Xocalı" quru yükdaşıyan gəmisini.

Keçən il isə xarici sularda Azərbaycan bayrağı altında üzən "Şuşa", "Qarabağ", "Zəngəzur" adlı üç "Aframax" tipli tanker istismara verilib. 2021-ci ildən üzməyə başlayan digər bir tankerimiz "Kəlbəcər" adlanır. Torpaqlarımız hələ işğalda olan zaman fəaliyyətə başlayan bir sıra gəmilərə də doğma yurd yerlərimizin adı verilmişdi. Məsələn, 10 ildən çoxdur "Şahdəniz" yatağında sualtı tikinti işləri aparan "Xankəndi" gəmisinə, yaxud artıq 5 ildir müxtəlif limanlara onlarla səfər etmiş "Laçın" tankerinə (Bəli, biz bu gəmilərə tarixi torpaqlarımızdakı yaşayış məkanlarının adını verərkən tezliklə oraya qayıdacağımıza böyük inam bəsləyirdik. Həm də dünyaya bir daha çatdırmaq istəyirdik ki, bu, bizim ata-baba torpağımızdır). Sözügedən gəmilərin əksəriyyətinin istismara verilməsində Prezident İlham Əliyevin iştirak etməsi onların önəminə diqqət çəkir.

Bu il iyulun 2-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunan "Zəngilan" tankeri istismara verildi. "Zəngilan" zavodda inşa olunan sayca dördüncü milli tankerdir. Bundan əvvəl istismara verilən "Laçın" və "Kəlbəcər" tankerlərindən fərqli olaraq, "Akademik Xoşbəxt Yusifzadə" tankeri kimi, "Zəngilan" həm neft, həm də kimyəvi məhsullar daşıyır. Nadir dizaynı ilə seçilən və texniki göstəricilərinə görə geniş imkanlara malik tankerin konsepsiyası Odessa Dəniz Mühəndisliyi Bürosu ilə uğurlu əməkdaşlıq çərçivəsində hazırlanıb. Yeni nəsil tankerin uzunluğu 141 metr, eni 16,9 metr, bortunun hündürlüyü isə 6 metrdir. Saatda 10 knot sürətlə hərəkət edə bilən tanker 15 nəfərlik heyət tərəfindən idarə olunur. Tanker ümumi tutumu 9212 kubmetr olan 6 yük çəninə malikdir. Dedveyti (ümumi yükgötürmə qabiliyyəti) 7875 ton təşkil edən tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Gəminin texniki göstəriciləri, xüsusilə suya oturumu maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımağa imkan yaradır. Yeni nəsil "Zəngilan" tankeri də digər milli istehsalımız olan tankerlər kimi Xəzərdə və Xəzərdənkənar sularda istismar edilir.

Cari ilin mayında isə Çində "Xocalı" adlı "Handysize" tipli bir quru yük gəmisinin istismara verilməsi ilə gəmiçiliyimiz quru yük daşımalarında yeni seqmentə daxil olub. Bu gəminin ilk səfəri Cənubi Koreyanın "Bakpyung" limanından ABŞ-nin "Portland" limanına yerinə yetirilib. Gəmi təyinat limanına uğurla çatıb və yükboşaltma əməliyyatını icra edib. Onu da qeyd edək ki, bu səfərlə "Xocalı" müstəqil Azərbaycan bayrağı altında Amerika sularına daxil olan ilk gəmi kimi tarixə düşüb.

Keçən ilin sonunda ASCO və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən yaradılmış "SA Maritime AFEZCO" Birgə Müəssisəsinə məxsus "Aframax" tipli sayca üçüncü gəmidə Dövlət himninin sədaları altında üçrəngli Azərbaycan bayrağı qaldırıldı.

"Zəngəzur" adlanan bu gəminin dedveyti də ondan öncə istismara verilən "Şuşa" və "Qarabağ" "Aframax" tipli tankerlər kimi təxminən 115 min tondur. "ASCO Ship Management AFEZCO" tərəfindən idarə olunan "Aframax" tipli bu tanker də Xəzərdənkənar sularda istismar edilir. Qeyd edək ki, Prezident İlham Əliyevin dəstəyi ilə alınan həmin nəhəng gəmilər ölkəmiz üçün strateji əhəmiyyətə malik olmaqla, milli gəmiçiliyin yükdaşıma potensialının artırılmasına xidmət edir, neft sənayemizin beynəlxalq dəyər zəncirinə töhfə verir.

ASCO və SOCAR-ın Müşahidə Şurasının razılığı ilə paritet əsaslarla yaradılan "SA Maritime AFEZCO" Birgə Müəssisəsi tərəfindən alınan "Aframax" tipli daha bir tanker "Qarabağ"dır. Bu gəmi keçən ilin iyun ayında istismara verilib.

Xəzərdənkənar sularda Azərbaycan bayrağı altında üzən digər "Aframax" tipli tankerlər kimi, "Qarabağın" da dedveyti təxminən 115 min tondur. Gəmini Ələt Azad İqtisadi Zonasında qeydiyyatdan keçmiş ASCO-nun 100 faiz törəmə müəssisəsi olan "ASCO Ship Management AFEZCO" şirkəti idarə edir. Xatırladaq ki, "SA Maritime AFEZCO" Birgə Müəssisəsi tərəfindən bazar araşdırması nəticəsində ilkin olaraq üç "Aframax" tipli tankerin birincisi "Şuşa" gəmisidir. Bu gəmi isə keçən il iyunun 15-də - Qurtuluş Günündə istismara verilib.

Bütün bunlar ölkəmizin iqtisadi sahədə dinamik inkişafının daha bir təzahürüdür. Hazırda Azərbaycan dünyada gedən müxtəlif geosiyasi böhranlara baxmayaraq, öz iqtisadiyyatını bu böhranın yaratdığı mənfi meyillərdən maksimum dərəcədə qoruya bilir. O cümlədən dəniz nəqliyyatı sahəsində ciddi inkişaf templəri müşahidə edilir. Sona çatmaqda olan il ərzində sahədə baş verən mühüm hadisələr də bunu təsdiqləyir.

Flora SADIQLI,
"Azərbaycan"

Yeni aksiyaya start verilir

Bölgələrdə yaşayan aztəminatlı ailələrin övladlarını sevindirmək üçün yeni aksiyaya start verilir.

Aksiya Kənd Təsərrüfatı Nazirliyi, "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" sosial proqramı və "Aqrar İnkişaf Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə baş tutur.

Məqsəd həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək, cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır.

Qeyd edək ki, aksiya çərçivəsində arzularını məktubla asanmektub.az saytına yerləşdirən 100 uşağın arzuları həyata keçiriləcək.

"Azeri Light" 75 dollara düşüb

AZƏRTAC xəbər verir ki, dünya bazarında Azərbaycan nefti ucuzlaşıb.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,13 dollar və ya 1,48 faiz azalaraq 75 dollar olub.

Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Qeyri-neft sənaye məhsulları: istehsal da, çeşid də, ixrac da artır

Artıq neçə ildir ölkəmizdə qeyri-neft sənayesinin inkişafında sənaye zonaları əhəmiyyətli rol oynayır. Bu zonalarda sahibkarlar tərəfindən ən son texnologiyalardan istifadə olunması istehsal edilən məhsulların xarici bazara çıxarılmasına da imkan verir. Son dövrlər ölkə üzrə qeyri-neft-qaz məhsullarının ixracının artması da bununla bağlıdır.

Məlumdur ki, hər bir sahənin inkişafı investisiya qoyuluşu tələb edir. Ona görə də dövlət qeyri-neft-qaz sənayesində çalışan sahibkarlara hər cür dəstək verir, o cümlədən onlara güzəştli kreditlərin əldə edilməsində yardımçı olur. Bundan əlavə, sənaye parkları və məhəllələrində fəaliyyət göstərən yerli və xarici sahibkarlar bir çox vergi və rüsumlardan azaddırlar, üstəlik, onlar əlavə güzəştlərdən də yararlanırlar.

Cari ildə də sənaye zonalarında məhsul istehsalı və ixracı artıb. Belə hal ölkəmiz üçün iki mühüm amilə görə əhəmiyyətlidir. Birincisi, yerli sənaye məhsullarının istehsalı idxalı azaldır, deməli, həm də ölkədən valyuta axınının qarşısını alır. İkincisi, yerli sənaye məhsullarının ixracının artması ölkəyə əlavə valyuta gəlməsini təmin edir. Hər iki hal ölkənin maliyyə dayaqlarının möhkəmlənməsində mühüm şərtdir.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Neftçala Sənaye Məhəlləsinin rezidenti "Gedik Kaynak" MMC tərəfindən ilk dəfə olaraq İraqa elektrod ixrac edilib. İlkin mərhələdə həmin ölkəyə 150 ton məhsul göndərilib. Bu həm də Azərbaycanın elektrod istehsalı sahəsində ilk məhsul ixracı hadisəsidir. Qeyd edək ki, "Gedik Kaynak" MMC 2021-ci ildə Neftçala Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb. Şirkət tərəfindən Sənaye Məhəlləsinin ərazisində 2 növdə olmaqla 8 ölçüdə elektrod istehsal olunur.

Masallı Sənaye Məhəlləsində investisiya kapitalı 6,2 milyon manat olan 8 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Sahibkarlar tərəfindən indiyədək görülmüş işlərə 2,1 milyon manat investisiya yatırılıb, 70 iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə sənaye məhəlləsinə əlavə olaraq 4,1 milyon manat investisiyanın yatırılması yeni 159 iş yerinin açılmasına imkan verəcək. Masallı Sənaye Məhəlləsində indiyədək 14,2 milyon manatlıq məhsul istehsal edilib.

Cari ildə də bu sənaye məhəlləsində məhsul istehsalında müsbət dinamika müşahidə olunur. Belə ki, əgər keçən ilin 9 ayında məhəllədə 1,9 milyon manatlıq məhsul istehsal edilmişdirsə, cari ilin müvafiq dövründə bu rəqəm 2,2 milyon manata çatıb. İstehsal olunan məhsullar əsasən daxili bazarın tələbatının ödənilməsinə yönəldilib.

Ağdam Sənaye Parkında isə ilk dəfə məhsul ixracına başlanılıb. Dövlət dəstəyi ilə yaradılan sənaye parkının rezidenti "Mister Decor" MMC Gürcüstana divar kağızları ixrac edib. Hazırda şirkət tərəfindən digər ölkələrə də məhsul ixracı ilə bağlı danışıqlar aparılır.

Qeyd edək ki, Ağdam Sənaye Parkında ümumi investisiyanın həcmi 260 milyon manat olan 28 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sahibkarlıq subyektləri tərəfindən sənaye parkında ümumilikdə 2300-ə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək parkda görülmüş işlərə sahibkarlar tərəfindən 92 milyon manatdan çox investisiya yatırılıb, 370-dən artıq daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir.

Sumqayıt Kimya Sənaye Parkının rezidenti "ALCO" MMC-nin də məhsul istehsalı və ixracında müsbət dinamika müşahidə edilir. Belə ki, ötən ilin 9 ayında zavodda 83 milyon manatlığa yaxın məhsul istehsal edilmişdirsə, cari ilin həmin dövründə bu rəqəm 27 faiz çox, yəni 105,5 milyon manat olmuşdur. Ötən ilin analoji dövrü ilə müqayisədə cari ilin 9 ayında ixrac təqribən 26 faiz artmışdır. Zavodda istehsal edilən məhsullar "Made in Azerbaijan" brendi ilə dünyanın 40-dan çox ölkəsinə ixrac edilir. Ümumiyyətlə, "ALCO" MMC tərəfindən istehsal edilən məhsulların 90 faizdən çoxu ixrac olunur.

Sumqayıt Kimya Sənaye Parkının rezidenti yeni məhsul istehsalına da başlayıb. "Azərbaycan Vanhong Ceramics Co." MMC sürtkü yağları və mayelərin, kimyəvi qatqıların istehsalı ilə məşğul olur. Müəssisə tərəfindən hazırlanan təzə məhsullar isə ölkəmizdə yeni olması ilə seçilir. Zavodda ilk dəfə istehsal edilən qəlibli keramik plitələrdən əsasən evlərin fasadlarında istifadə edilir.

Çin kapitallı "Azərbaycan Vanhong Ceramics Co." MMC keçən ilin oktyabr ayında fəaliyyətə başlayıb. İndiyədək müəssisədə 60 milyon manatlıqdan çox məhsul satışı həyata keçirilib ki, onun da 1,85 milyon manatlığı Rusiya, Belarus, Gürcüstan, Özbəkistan və Qazaxıstana ixrac olunub.

Rüstəm KAMAL,
"Azərbaycan"

Goranboyda suvarma suyuna olan tələbat maksimum ödənilir

Ölkədə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasında, əhalinin ərzaqla etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Bu baxımdan son illərin ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən Şəmkirçay su anbarının, eləcə də Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının tikintisi ilə minlərlə hektar torpaq sahəsinin suvarılmasına, kənd təsərrüfatının inkişafına və yeni iş yerlərinin yaradılmasına imkan yaranmışdır. Şəmkir-Samux-Goranboy magistral suvarma kanalı kompleks layihə olaraq mühüm əhəmiyyətə malikdir.

Xatırladaq ki, Prezident İlham Əliyevin iştirakı ilə 2009-cu ildə təməli qoyulan Şəmkir su anbarı 2014-cü ildə istifadəyə verilmişdir. Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının birinci növbəsinin davamı olan 27,95 kilometrlik ikinci növbənin tikintisinə isə 2015-ci ildə başlanılmışdır. Bu kanalın birinci növbəsinin tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektar əkin sahəsi suvarma suyu ilə təmin edilmişdir. Kanalın ikinci növbəsinin İpək yoluna qədər 8,55 kilometrlik birinci mərhələsinin 2017-ci ildə başa çatmış tikintisi isə Goranboy və Samux rayonlarının 941 hektarı yeni suvarılacaq torpaqlar olmaqla, 8938 hektar torpaq sahəsini suvarmağa imkan vermişdir. Bütövlükdə magistral kanalın istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahəsinin su təminatının yaxşılaşdırılmasına və 17 min hektar yeni suvarılacaq torpaqlardan istifadə olunmasına imkan yaranmışdır.

Hazırda rayonun Goranlı, Qazançı, Qarapirimli, Gülməmmədli və Qırıxlı kəndlərinin əkin sahələrinin suvarılma suyu ilə təminatında mühüm əhəmiyyətə malik Şəmkir-Samux-Goranboy magistral suvarma kanalından şaxələndirici kanallar çəkilir. Suvarma suyunun davamlı təminatı, su itkisinin qarşısının alınması, sudan səmərəli istifadə və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi üçün aidiyyəti məsul şəxslər daim ərazilərdə olur, görülən işlərə ciddi nəzarət edirlər.

Sabir ƏLİYEV,
"Azərbaycan"

Mədəniyyət

● İntibah siyasəti

Mədəniyyətin gücü

Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısı milli irsimizin əbədiliyini təmin edir

Hər bir xalqı tarixin hüdudsuzluğunda sarsılmaz edən ən mühüm amillərdən biri də onun mədəniyyətinin gücüdür. Ona görə də böyük dövlət xadimləri daim mədəniyyətin inkişafına xüsusi diqqət yetirir, bununla tarixi irsin əbədiliyini təmin etmiş olurlar.

Mədəni dəyərlərimizin qorunması və inkişafı, bütün dünyada təbliği Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının ana xətti idi. Bu xətti strateji prioritet kimi davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində son onilliklərdə mədəniyyət sahəsində də geniş islahatlar aparılır. Milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, tarixi abidələrin bərpası istiqamətində layihələr həyata keçirilir. Respublika həyatında başlanan yeni dövr isə ölkəmizin əsl intibah mərhələsidir. Azərbaycan Prezidentinin imzaladığı fərman və sərəncamlar ölkəmizin mədəniyyət sferasını zənginləşdirir.

Musiqi sənətinin inkişafı

Prezident İlham Əliyevin mədəniyyət siyasətində mühüm bir sahəni əhatə edən musiqi sənətinə diqqət və qayğısı xüsusi yer turur. Musiqi sənətimizin ayrı-ayrı növləri, o cümlədən ən qiymətli mədəniyyət incilərimizdən olan muğam inkişaf etməyə, dünya miqyasında tanınmağa başladı. Bu nailiyyətlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xidmətləri misilsizdir. Şərq musiqisinin bu möhtəşəm nümunəsinin dünyada təbliği istiqamətində görülən işlər sayəsində 2003-cü ildə muğam UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edildi, daha sonra onun inkişafı və dünya səhnələrində tanıdılması istiqamətində müxtəlif beynəlxalq layihələr uğurla reallaşdırıldı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2008-ci ildə Bakıda tikilərək istifadəyə verilən Beynəlxalq Muğam Mərkəzi milli mədəniyyət tariximizə ən qiymətli töhfələrdən oldu. Mərkəz muğamın qorunması, öyrənilməsi və təbliği məqsədilə yaradılmışdır. Burada yerli və beynəlxalq miqyaslı muğam konsertləri, festivallar, elmi-praktiki konfranslar və digər mədəni tədbirlər keçirilir. Uzun illərdir ki, Bakıda mütəmadi şəkildə beynəlxalq muğam festivalları təşkil olunur. Bu festivallarda dünyanın müxtəlif ölkələrindən gələn musiqiçilər muğam sənətini, onun müxtəlif variantlarını təqdim edirlər. Ölkəmizin müxtəlif regionlarından gənc istedadların kəşf olunduğu muğam müsabiqələri də son onilliklərdə formalaşmış, insanlarımızın rəğbətlə izlədiyi xoş bir ənənəyə çevrilmişdir.

Bu gün dövlətimizin Qarabağdakı böyük quruculuq və bərpa işləri, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən "Xarıbülbül" və Üzeyir bəy Hacıbəyli musiqi festivalları və digər layihələr xalqımızın qüdrətini bütün dünyaya nümayiş etdirərək, mədəniyyət tariximizin səhifələrinə qızıl hərflərlə yazılır. Bütün bu layihələrdə Azərbaycanın mədəniyyət xadimlərinin, musiqişünasların iştirakı əlamətdarlıq təşkil edir.

Bəstəkarlarımız Qarabağ Zəfərinə, şanlı ordumuzun qəhrəmanlığına, xalqımızın rəşadətinə, bu zəfəri bizə bəxş edən Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə, qəhrəman oğullarımıza, bu yolda canını, qanını əsirgəməyən minlərlə şəhidlərimizin ruhuna, qazilərimizin şücaətinə həsr olunmuş yeni əsərlər yaradırlar. Əməkdar incəsənət xadimi Mobil Babayevin "Şanlı qələbə" simfonik əsəri əsgəri marşlar ruhundadır, ordumuzun döyüş əzmini tərənnüm edir. Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyevin "Qələbə uvertürası" Zəfərimizin parlaq bir mənzərəsini yaradır. Əməkdar artist Vüqar Camalzadənin "Qarabağa gedən yol" kompozisiyası isə sanki bir daha insanlara bu yolun mərhələlərini xatırladır. Gənc bəstəkar, Qarabağ qazisi Vüqar Məmmədzadənin "Dəmir yumruq" əsəri müharibəni öz gözləri ilə görmüş bir əsgərin, bir vətəndaşın musiqi təfəkkürü ilə yaradılmış, Müzəffər Sərkərdənin ətrafında sıx birləşən və qələbə qazanan ordumuzun igidlik dastanıdır. Əməkdar artist Məmməd Cəfərovun "Poema"sı general Polad Həşimovun xatirəsinə yazılıb. Bu əsərlərdə müasir qəhrəman obrazı böyük qürur hissi ilə tərənnüm olunmuşdur.

Qarabağ mövzusu Azərbaycan musiqi irsində zaman-zaman səslənərək, əbədi yer tutmuşdur. Burada Qarabağa, Şuşaya həsr olunmuş nə qədər mahnılar yaranıb - "Qarabağın maralı", "Qarabağın yollarına düşəydim", "Qarabağda bir dənəsən", "Şuşa ceyranı", "Şuşanın dağları", "Qalalıyam, qalalı", "Qarabağ şikəstəsi" və sairə Qarabağlı xanəndələrin yaradıcılıq məhsulu olan bu musiqi nümunələri bu gün də xalqın dilinin əzbəridir, bu diyarın ruhunu özündə yaşadır və onun gözəlliyini nəsillərə çatdırır. Təsadüfi deyil ki, bu mahnılar Qarabağın musiqi rəmzinə çevrilərək, bəstəkar əsərlərinə də hopub. Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi", "Qəm karvanı" oratoriyaları, "Natəvan" operası, "Şuşa laylası" mahnısı, xor üçün "Çəkin Qarabağdan qara əlləri", "Odlar yurdu" əsərləri, Ramiz Mustafayevin "Haqq səninlədir, Azərbaycan" vokal-simfonik poeması, Sevda İbrahimovanın "Qarabağnamə" - tar və simfonik orkestr üçün konserti, "Sənin üçün darıxıram Şuşam" əsəri, Firəngiz Əlizadənin "İntizar" ("Qarabağnamə") operası, Tofiq Bakıxanovun "Qarabağ harayı" simfoniyası və onlarla irili-xırdalı əsərlər meydana gəlib ki, bunlar bəstəkarların vətəndaşlıq mövqeyinin təzahürləridir, onların düşmənə nifrətini, qələbəyə inamını əks etdirir.

Bu gün Prezident İlham Əliyevin Azərbaycanın musiqi sənətinə diqqət və qayğısı sayəsində Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazası gücləndirilmiş, yeni tədris korpusları tikilmişdir. Bu, gənc musiqiçilərin müasir şəraitdə təhsil almalarına, bu günün və gələcəyin parlaq istedadları kimi yetişmələrinə imkan yaradır. Onların istedadlarını üzə çıxarıb dəstəkləməkdən ötrü davamlı olaraq müxtəlif musiqi müsabiqələri, konsertlər, festivallar təşkil edilir. Gənc ifaçıların dünya səhnələrində Azərbaycanı təmsil etmələrinə şərait yaradılır. Musiqi təhsili ilə bağlı dövlət səviyyəsində müxtəlif təqaüdlərin, mükafatların verilməsi də gənc istedadlarımızın dəstəklənməsinə xidmət edir.

Musiqi mədəniyyətimizin inkişafı üçün Azərbaycan Prezidenti mədəniyyət obyektlərinin bərpasına, yenilərinin tikilməsinə də xüsusi diqqət yetirir. Dövlət başçısının təşəbbüsü ilə milli musiqi irsimizin, bu irsi yaradan və yaşadan sənət adamlarımızın təbliği məqsədilə konsertlər, tədbirlər təşkil edilir, Bakıda və digər şəhərlərimizdə onlara abidələr ucaldılır.

Azərbaycan teatrına dəstək

Teatr sənəti Azərbaycanın mədəni irsinin vacib tərkib hissəsi kimi dövlət səviyyəsində dəstəklənir, bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Prezidentinin mədəniyyət siyasətində teatrların yenidən qurulması və maddi-texniki bazalarının gücləndirilməsi əhəmiyyətli yer tutur. Son onilliklərdə Bakıda və regionlarda bir çox teatr binaları əsaslı təmir olunaraq müasir texnologiyalarla təchiz edilib. Teatr fəaliyyəti ilə məşğul olan sənət adamlarımız hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Tanınmış teatr xadimləri dövlət tərəfindən mükafatlandırılır, onlara fəxri adlar, təqaüdlər verilir.

Bir faktı da qeyd edək ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkədə heç bir teatr bağlanmamış, əksinə, Pantomima, "Yuğ", İrəvan və Azərbaycan dram teatrları dövlət statusu almışlar. Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə "Teatr və teatr fəaliyyəti haqqında" qanun təsdiq edilmişdir. Bu, MDB məkanında və dünyanın inkişaf etmiş ölkələrində ilk dəfə olaraq atılan addım idi. Qanun Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına böyük yaradıcılıq imkanları vermiş, hər iki teatrda çalışan insanların əməkhaqqı artırılmışdır. Həmin fərman az sonra daha beş teatra şamil edilmişdir.

Dövlət başçısının "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" 2007-ci il 19 fevral tarixli sərəncamı milli teatr sənətinin inkişafı ilə bağlı bir çox tədbirlərə yol açmışdır. 2009-cu ilin mayında Prezidentin sərəncamı ilə "Azərbaycan teatrı 2009-2019-cu illər Dövlət Proqramı" qəbul edilmişdi.

Bu illər ərzində Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla, S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Akademik Milli Dram və digər teatrların binalarında yüksək səviyyədə təmir-bərpa və yenidənqurma işləri aparılıb. Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının 40 il ərzində problemli olan bina məsələsi köklü şəkildə öz həllini tapıb. İrəvan Dövlət Azərbaycan Dram Teatrının uzun illərdən bəri binasızlıq şəraitində davam edən qaçqınlıq həyatına son qoyulub və teatr gözəl bina ilə təmin edilib. Bu il Pantomima teatrının 30 yaşı keçirilib. Görülmüş işlər nəticəsində Azərbaycan Dövlət Musiqili Teatrının binası dünya standartlarına uyğun təmir edilərək istifadəyə verilib. Bu teatrlarda ən mürəkkəb quruluşlu tamaşalara səhnə həyatı vermək üçün lazım olan bütün texnika və mexanizmlər, işıq və səs sistemləri, tamaşaçıların rahatlığına hesablanmış havalandırma və istilik sistemi, gözəl interyer və sairə yaradılıb.

Teatr sənətinin inkişafı yalnız dövlət teatrları şəbəkəsi ilə məhdudlaşmır. Bu gün artıq ölkəmizdə özəl sektor və biznes münasibətlərindən faydalanaraq yeni prodüser mərkəzləri yaranır. Cəmiyyətdə teatra olan marağın artması isə yeni teatr fəaliyyəti formalarının meydana çıxmasına səbəb olur. Bu, həm də teatrla bağlı qəbul olunmuş qanun və digər dövlət sənədlərinin işlək mexanizminə dəlalət edir. İndi həmin formanın ən müasir nümunəsi kimi maraqlı layihələrlə çıxış edən "ÜNS" Yaradıcılıq Səhnəsinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

2013-cü il martın 1-də dövlət başçısı "Azərbaycanda peşəkar milli teatrın yaradılmasının 140 illiyi haqqında" sərəncam imzaladı. Həmin ilin iyun ayında yubileylə bağlı təntənəli mərasim keçirildi. 2023-cü ilin fevralında isə Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalandı.

Dövlət başçısı ölkəmizdə teatr təhsilinin keyfiyyətinin yüksəldilməsinə də xüsusi diqqət yetirir. Bu məqsədlə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və digər teatr təhsili müəssisələrinin maddi-texniki bazası gücləndirilib, tədris proqramları yenilənib. Teatr sənətinə maraq göstərən gənclərin peşəkar səviyyədə təhsil alması və inkişaf etməsi üçün geniş imkanlar yaradılıb.

Azərbaycanda teatr sənətinin təbliği və beynəlxalq səviyyədə tanıdılması üçün davamlı şəkildə teatr festivalları, bu yöndə başqa mədəniyyət tədbirləri həyata keçirilir. Bütün bunlar, Azərbaycan teatr sənətinin dünyada tanınmasına və ölkə daxilində teatr ənənələrinin qorunaraq daha da inkişafına xidmət edir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın teatr sənəti müasir texnologiyalara, innovasiyalara uyğunlaşdırılır.

Sənətə, sənətkara diqqət və qayğısını heç zaman əsirgəməyən, milli mədəniyyətimizin inkişafı strategiyasını əzmlə həyata keçirərək ictimai şüurun inkişafına mühüm töhfələr verən dövlət rəhbərimiz İlham Əliyevin müvafiq sərəncamında da qeyd edildiyi kimi, Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir. Artıq 151 yaşına çatan Azərbaycan teatrı bu qayğıkeş münasibətdən, dəstəkdən faydalanaraq yeni dövrün çağırışlarına uyğun inkişaf edir, xalqımızın mədəni tərəqqisinə, dövlətimizin hərtərəfli nailiyyətinə dəyər qatır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Seymur FƏTƏLİYEV: "Muzeyə hədiyyə edilən Azərbaycan musiqi alətləri iki ölkənin mədəniyyətləri arasında körpü olacaq"

"Tar, kamança və qaval UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsinin şah əsəri kimi tanınan muğam musiqi janrının fundamental elementləridir. Azərbaycanın bu günə kimi 24 elementi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Paraqvayın Asunson şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 19-cu sessiyası zamanı siyahıya "Azərbaycanda təndir hazırlamaq və çörək bişirmək sənəti" milli nominasiyası da əlavə edilib".

Bu fikirləri Azərbaycanın UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev Brüsseldə Kral İncəsənət və Tarix Muzeyinə Azərbaycan milli musiqi alətlərinin hədiyyə edildiyi tədbirdə deyib. "Azərbaycan mədəniyyəti olduqca zəngin və rəngarəngdir, lakin muğam sənəti xüsusi yer tutur. Tar, kamança və qavaldan ibarət muğam üçlüyü tarixə kök salmış Azərbaycan musiqi ənənələrinin fövqəl nümunəsini təmsil edir. Bu trio indiki formasını 19-cu əsrdə alsa da, onu bəstələyən alətlər və ifa etdikləri musiqilər daha qədim mənşələrə malikdir", - deyə S. Fətəliyev bu musiqi alətləri haqqında ətraflı məlumat verib. Bildirib ki, tar Azərbaycan musiqi kimliyinin simvolu, misilsiz ifadə dərinliyi təqdim edən simli musiqi alətidir. Kamança zəngin və ifadəli tembri ilə Azərbaycan ruhunun əsl səsidir. Qavala gəlincə, o, muğamın mərkəzi ritmik elementidir, bu unikal musiqiyə quruluş və nəbz gətirir.

Azərbaycanın UNESCO üzrə Milli Komissiyasının baş katibi musiqi alətlərini, onların tarixini və simvolikasını ətraflı təqdim edib. "Tar Azərbaycan musiqisinin mühüm alətidir. Ən çox yayılmış versiyaya görə, bu alət XVI əsrdə meydana çıxsa da, onun müasir variantı 1870-ci illərdə məşhur musiqiçi Mirzə Sadıq Əsəd oğlu tərəfindən təkmilləşdirilib. 2012-ci ildən "Simli musiqi aləti olan tar hazırlamaq və ifa etmək sənəti" Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Təqdim etdiyimiz tar Bakıda simli musiqi alətləri ustası Eyvaz İbrahimov tərəfindən tut ağacından hazırlanıb və təbii sədəflə bəzədilib.

Kamança Azərbaycan musiqi ənənəsində ən qədim alətlərdən biridir. Yumşaq, zərif və bir qədər həzin tonu ilə kamança musiqisevərlər tərəfindən xüsusi rəğbətlə qarşılanır. Təqdim etdiyimiz kamança tut və qoz ağaclarını birləşdirən, təbii sədəflərlə bəzədilmiş əl işidir. Onun yuxarı hissəsi nərə balığının dərisindən hazırlanmış nazik qişa ilə örtülüb.

Qaval tar və kamançanın müşayiəti ilə ənənəvi muğam üçlüyünü tamamlayır. Bu üçlükdə əsas rolu ritmik melodiyaları qeyd etmək üçün qavalı çalaraq oxuyan xanəndə oynayır. Təqdim etdiyimiz qaval Gəncə şəhərində usta Mehman Məmmədovun əl işidir. O, tut ağacından hazırlanıb. Balıq dərisi pərdəsi alətə unikal rezonans verir", - deyə S.Fətəliyev bildirib.

Diplomat vurğulayıb ki, bu alətlər iki ölkənin mədəniyyətləri arasında möhkəm körpü olacaq və ziyarətçilərə Azərbaycan musiqisinin tarixini, gözəlliyini və dərinliyini tanıdacaq, zəngin mədəni irsimizi daha çox kəşf etməyə və araşdırmağa ruhlandıracaq.

Lənkəranda "Peşəkar teatr dərsləri" başa çatıb

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin "Peşəkar teatr dərsləri" layihəsi çərçivəsində Lənkəran Dövlət Dram Teatrında keçirdiyi ustad dərsləri başa çatıb.

Mərkəzdən bildirilib ki, regionlarda fəaliyyət göstərən teatrların rejissor və aktyorları üçün təşkil olunmuş ustad dərsləri Əməkdar incəsənət xadimi, rejissor Bəhram Osmanov və teatrşünas Dağlar Yusif tərəfindən aparılıb.

Təlimlər teatrda aktiv yaradıcılıq mühiti formalaşdırmaqla iştirakçılara fikir və təcrübə mübadiləsi, həmçinin kollektivin potensialını inkişaf etdirmək imkanı yaradıb.

"Peşəkar teatr dərsləri"ndə aktyorların tamaşaçı ilə ünsiyyəti, rejissorla işləmək bacarığı, səhnə texnikası, həmçinin pyesin mənimsənilmə qabiliyyəti, səhnə ritmika və plastikası, nitq mədəniyyəti kimi keyfiyyətləri təkmilləşdirilib. Həmçinin layihə çərçivəsində Bəhram Osmanovun bədii rəhbərliyi, gənc və istedadlı rejissor Emil Əsgərovun quruluşçu rejissorluğu ilə məşhur İsveç dramaturqu Lars Nurenin "Demonlar" pyesi üzərində işə start verilib. Azərbaycanda ilk dəfə tamaşaya qoyulacaq pyes kollektiv tərəfindən maraqla qarşılanıb.

Layihənin əsas məqsədi region teatrlarında sənətin peşəkar əsaslarının tədrisi, nəzəri-praktiki təcrübə mübadiləsi ilə peşəkarlıq səviyyəsinin artırılması və fəal yaradıcı mühitin formalaşdırılmasıdır.

Londonda yaşayan azərbaycanlı skripkaçı: "Xarici tamaşaçılar bizim musiqiyə böyük maraq göstərirlər"

Azərbaycanın Əməkdar artisti, beynəlxalq müsabiqələr laureatı və Çaykovski adına Moskva Dövlət Konservatoriyasının məzunu Ceyla Seyidova artıq bir ildir ki, Britaniyada yaşayır və musiqi karyerasını burada davam etdirir.

Ceyla Seyidova Londondakı karyerası, gördüyü işlər və COP29-un açılış mərasimində çıxışı barədə AZƏRTAC-a müsahibə verib.

Ceyla Seyidova musiqiçi ailəsində dünyaya gəlib və uşaqlıqdan musiqi ilə əhatə olunub: "Anam həmişə istəyirdi ki, mən pianoçu olum. Mənim qardaşım da skripka ifaçısıdır. Skripkanın səsi mənim ürəyimə daha yaxın idi və mən həmişə deyirdim ki, skripkada ifa etmək istəyirəm. 6 yaşımda Bülbül adına orta ixtisas musiqi məktəbinə daxil oldum. Məktəbdə Prezident təqaüdçülərinin şəkillərini gördüm. Özümə söz verdim ki, onların arasında olacağam. İlk çıxışım 7 yaşımda Azərbaycan Dövlət Filarmoniyasında oldu və o andan səhnəni sevdiyimi anladım".

O, 9 yaşında İtaliyada keçirilən beynəlxalq müsabiqədə qalib olub. Bu gün Londonda fəaliyyət göstərən sənətçi müxtəlif layihələrdə iştirak edir və solo konsert proqramları ilə çıxış edir. Ceyla Seyidova qeyd edir ki, Britaniya klassik musiqinin beşiyidir və burada çıxış etmək böyük məsuliyyətdir: "Londonda özünü tanıtmaq asan deyil, burada çox sayda istedadlı ifaçı var. Bu rəqabət mühitində Azərbaycan musiqisini tanıtmaq üçün üzərimdə çox çalışıram", - deyə o bildirib.

Müsahibimiz Azərbaycanın zəngin musiqi irsini dünyada tanıtmağı öz missiyası hesab edir: "Azərbaycan bəstəkarlarının əsərləri çox zəngindir. Xarici tamaşaçılar bizim musiqiyə böyük maraq göstərirlər. Mənə yaxınlaşıb bu əsərlərin fərqli ritmlərinin və melodiyalarının onlara necə təsir etdiyini deyirlər. Hətta bəzi tamaşaçılar məndən notları da istəyirlər. Belə məqamlarda çox xoşbəxt oluram, çünki musiqimizin sevilməsi mənim üçün böyük qürurdur".

Skripkaçı, həmçinin il ərzində Fransada və Niderlandda konsert proqramları ilə çıxış edib, Londonda müxtəlif tədbirlərdə və muzeylərdə Azərbaycan musiqisini təbliğ edib. Ötən il Azərbaycanın Londondakı səfirliyində də onun konserti təşkil olunub.

Ceyla Seyidovanın çıxışlarından biri də bu yaxınlarda böyük beynəlxalq tədbir olan COP29-un Liderlər Sammitinin açılış mərasimində baş tutub. O, dünya liderlərinin qarşısında Azərbaycan musiqisini ifa edib: "Bu, mənim üçün həm böyük məsuliyyət, həm də qürur anı idi. Azərbaycanın musiqisini belə nüfuzlu səhnədə təqdim etmək mənim üçün xüsusi əhəmiyyət daşıyır".

Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamə tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:

Sıra №si	Məcburi audit subyektləri	Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası
1.	İctimai əhəmiyyətli qurumlar	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən.
2.	Məhdud məsuliyyətli cəmiyyətlər	Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 91.4-cü maddəsində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ
3.	Səhmdar cəmiyyətləri	Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107.6-cı maddələrində nəzərdə tutulan şərtlərlə 1999-cu il 28 dekabr tarixli 779-IQ
4.	Banklar və digər kredit təşkilatları	"Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələrinə əsasən.
5.	Sığorta təşkilatları və cəmiyyətləri	"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsinə əsasən.
6.	İnvestisiya fondları	"İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələrinə əsasən.
7.	Maliyyə-sənaye qrupları	"Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ №-li Qanununun 16-cı və 17-ci maddələrinə əsasən.
8.	Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər)	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsində nəzərdə tutulan şərtlərlə.
9.	Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsinə əsasən.
10.	Publik hüquqi şəxslər	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsinə əsasən. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsinə əsasən.
11.	Siyasi Partiyalar	"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsinə əsasən.
12.	Kənd təsərrüfatı kooperativləri	"Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli № 270-VQ saylı Qanunun 5.4-cü maddəsinə əsasən.
13.	Bələdiyyələr	"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli № 772-IQ saylı Qanunun 13-cü maddəsinə əsasən.
14.	İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları	"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli № 1284-IVQ saylı Qanunun 61-ci maddəsinə əsasən.
15.	Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlar	Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman, sərəncamlarına və digər sənədlərə əsasən.

İzahedici qeydlər:

- Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri ehtiva olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi, digər hallarda isə könüllüdür.
- Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilər.
- Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.
- Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyat naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;
- İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz:
- **https://audit.gov.az/Az/page/5 (auditor təşkilatları)**
- **https://audit.gov.az/Az/page/6 (sərbəst auditorlar)**
- Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır.

Azərbaycan Respublikasının Auditorlar Palatası

"Bank Respublika" ASC səhmdarlarının nəzərinə!

"Bank Respublika" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 22 yanvar 2025-ci il saat 12:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.

Gündəlikdəki məsələlər:

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin ilin maliyyə nəticələri və mükafatın ödənilməsi haqqında.
4. Xalis mənfəətinin bölüşdürülməsi haqqında.

Rəhbərlik

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

2025-ci il üçün abunə yazılışı davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -187,20 (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
6 aylıq - 93,60 (doxsan üç manat altmış qəpik) **manat**
3 aylıq - 46,80 (qırx altı manat səksən qəpik) **manat**
1 aylıq - 15,60 (on beş manat altmış qəpik) **manat**

Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

Fotolar İlham BABAYEVİNDİR

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi elm və təhsil nazirinin köməkçisi Taleh Əhmədova atası

VALEH HABİL OĞLU ƏHMƏDOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin üzvləri Azərbaycanın Əməkdar memarı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

FƏXRƏDDİN BÖYÜK OĞLU MİRALAYEVİN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycanın Əməkdar memarı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü

FƏXRƏDDİN BÖYÜK OĞLU MİRALAYEVİN

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 434-63-30, 539-72-39	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32, 538-35-55,		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4233
Sifariş 2900

Qiyməti 60 qəpik